RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 165 (9910) 9 avqust 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# TARİXİ gün görüş sənəd



## Azərbaycan Prezidentinin Vaşinqton səfəri tarixi uğurlarla nəticələnib



**Avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan arasında görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp qarşıladı.

Ağ Evdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunu imzaladılar.

2





# TARİXİ gün görüş sənəd

## Azərbaycan Prezidentinin Vaşinqton səfəri tarixi uğurlarla nəticələnib

*Əvvəli 1-ci səh.*

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşü çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsini parafladılar və Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciətini (ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə) imzaladılar.



Sonra liderlər mətbuata bəyanatlarla çıxış etdilər. Prezident Donald Tramp mətbuata bəyanatında otuz ildən çox davam etmiş müharibənin hər iki dövlətə böyük ziyan vurduğunu xatırladaraq, istəyinin bölgədə sülhün və rifahın təmin edilməsi olduğunu vurğuladı. O, sülhün əldə edilməsi istiqamətində göstərdiyi qətiyyətə görə hər iki liderə təşəkkürünü bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında yeni tarixi səhifəyə imza atıldığını vurğulayaraq, Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlığın başladığını bildirdi. Dövlətimizin başçısı dünyanın ən böyük ölkəsi ilə strateji tərəfdaşlığı böyük imkan və böyük məsuliyyət kimi dəyərləndirərək, Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvinə görə ABŞ Prezidenti Donald Trampa təşəkkürünü ifadə edərək dedi: "Cənab Prezidentə təşəkkür edirəm ki, o Azərbaycana hələ 1992-ci ildə - Azərbaycanın müstəqilliyini bərpa etməsindən cəmi bir il sonra tətbiq olunan bu məhdudiyyəti 33 il sonra bu gün ləğv etdi. Bu gün bu, baş tutdu. Bu gün həqiqətən də Azərbaycan xalqının yaddaşına böyük şərəf və böyük təşəkkür kimi həkk olunacaq".

Azərbaycan Prezidenti Cənubi Qafqazda sülhün bərqərar olunmasının əhəmiyyətini yüksək qiymətləndirərək dedi: "Bu gün biz Cənubi Qafqazda sülhü bərqərar edirik. Bu, nəinki bizim bölgəmiz, eyni zamanda bütün dünya üçün böyük imkandır".

Dövlətimizin başçısı "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) bir sıra ölkələr üçün investisiya, sərmayə, sabitlik və rifah baxımından böyük imkanlar açacağını bildirərək, sülh danışıqlarının uğurla nəticələnməsində Prezident Trampın və onun komandasının fəaliyyətini xüsusi vurğuladı: "Prezident Tramp və onun komandası olmasaydı, bizim yaxın dostumuz cənab Uitkoff və onun komandası olmasaydı, yəqin ki, bu gün Ermənistan və Azərbaycan yenə tükənməyən bir danışıqlar prosesində qalardı".

Prezident İlham Əliyev Donald Trampın Nobel Sülh mükafatına layiq görülməsi üçün Nikol Paşinyan ilə birgə Nobel Sülh Komitəsinə müraciət etməyi təklif etdi və ABŞ Prezidentinin bu mükafata layiq olduğunu dedi.

Baş nazir Nikol Paşinyan isə mətbuata bəyanatında Ermənistan və Azərbaycanın ikitərəfli münasibətlər baxımından fundamental mərhələyə qədəm qoyduğunu qeyd edərək bildirib ki, bu mərhələ Prezident Trampın şəxsi iştirakı olmadan mümkün olmazdı.

Sülh sazişinin hazırlanması və imzalanmasının nəticə etibarilə iki ölkə arasında yeni mərhələnin açılması və ölkələrimiz arasında suverenliyin və ərazi bütövlüyünə hörmətlə yanaşılmasının başlanğıcı olduğunu qeyd edən Nikol Paşinyan bu tarixi günün ölkələrimiz və region üçün uğurlu olduğunu, bütün dünyanın bundan qazanacağını qeyd edib. "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun tamamlanması və icra olunması kontekstində bir yerdə bərabər şəkildə çalışacağıq", - deyə Ermənistanın Baş naziri vurğulayıb.

Bəyanatlardan sonra Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannaməni imzaladılar.

Bəyannamədə "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin tərəflərin xarici işlər nazirləri tərəfindən paraflandığı bildirilib, Sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinin davam etdirilməsinin, sülhün təmin olunması və gücləndirilməsinin vacibliyi vurğulanıb.

Bundan başqa, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə birgə müraciət ünvanlanması, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında kommunikasiyaların açılmasının əhəmiyyəti bir daha təsdiq olunub. Bu səylərin Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva etdiyi bildirilib.

Habelə Ermənistanın öz ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) üçün çərçivənin müəyyən edilməsi məqsədilə ABŞ və qarşılıqlı müəyyənləşdirilmiş üçüncü tərəflərlə əməkdaşlıq edəcəyi qeyd olunub.

Tərəflər BMT Nizamnaməsinə və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiqinin yolverilməzliyi əsasında qonşuluq münasibətlərinin qurulmasına şərtlərin yaradılmasının vacibliyini vurğulayıblar.

Bəyannamənin imzalanmasından sonra liderlər media nümayəndələrinin suallarını cavablandırıblar.

## Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verib

**Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müsahibədə ABŞ-yə işgüzar səfərinin mühüm nəticələri, o cümlədən Prezident Donald Tramp ilə görüşü və Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üzrə İşçi Qrupunun yaradılmasına dair sənədin imzalanmasının əhəmiyyəti, eləcə də Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvinin tarixi önəmi barədə sualları cavablandırıb.

Dövlətimizin başçısı həmçinin Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanması, iki ölkənin liderlərinin Vaşinqton görüşünə dair Birgə Bəyannamənin imzalanması, ATƏT-in Minsk qrupunun ləğvi və sülh danışıqları ilə bağlı növbəti addımlar barədə fikirlərini bölüşüb.

Azərbaycan Prezidenti müsahibədə "Exxon" və SOCAR arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması, ölkələrimizin enerji sahəsində əməkdaşlığının yeni mərhələyə qədəm qoyması, Azərbaycanın daha güclü mövqelərə malik tranzit ölkəyə çevrilməsi istiqamətində atdığı addımlar barədə də danışıb.



# Rumınıyanın Prezidenti zati-aliləri cənab Nikuşor Dana

Hörmətli cənab Prezident!

Rumıniyanın keçmiş Prezidenti, görkəmli dövlət xadimi İon İliyeskunun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

İon İliyesku Azərbaycan Respublikası ilə Rumıniya arasında əlaqələrin təşəkkülünə və inkişafına, dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə böyük töhfə vermişdir. O, dəfələrlə Azərbaycana səfər etmişdir. Onunla görüşlərimi həmişə ən xoş təəssüratlarla xatırlayıram.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Rumıniya xalqına dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 avqust 2025-ci il*

# Azərbaycan ilə Qırğızıstan arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub

**Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifov avqustun 8-də Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini Edil Baysalov ilə görüşüb.**



Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Görüşdə Azərbaycan və Qırğızıstan prezidentlərinin qarşılıqlı etimada əsaslanan münasibətlərinin və sıx təmaslarının dövlətlərarası əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə çatmasında və ardıcıl şəkildə inkişaf etməsində ən mühüm amil olduğu vurğulanıb.

İki ölkə arasında ticarət-iqtisadi, investisiya, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Görüş zamanı həmçinin Baş nazirin müavini S.Şərifovun həmsədri olduğu Azərbaycan-Qırğızıstan iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyasının növbəti iclasının cari ilin sonlarında Bakı şəhərində keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Baş prokuror Qəbələ rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



Avqustun 8-də baş prokuror Kamran Əliyev Qəbələ Rayon Prokurorluğunun inzibati binasında Qəbələ, Oğuz, İsmayıllı, Göyçay rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 46 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

# Qəbələdə prokurorluq əməkdaşları üçün yeni xidməti mənzillər istifadəyə verilib



**Avqustun 8-də baş prokuror Kamran Əliyev Qəbələdə prokurorluq işçiləri üçün inşa edilmiş yeni xidməti mənzillərin təhvil verilməsi mərasimində iştirak edib.**

Qəbələ Rayon Prokurorluğunun əməkdaşlarının sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə tikilmiş mənzillər bütün zəruri şərait və avadanlıqlarla təchiz olunmaqla tam yaşayış üçün hazır vəziyyətə gətirilib. Tədbirdə çıxış edən baş prokuror vurğulayıb ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarında da yenilənmə və inkişaf prosesi davam etdirilir. Bu islahatlar təkcə hüquqi institutların təkmilləşdirilməsini deyil, eyni zamanda əməkdaşların peşə hazırlığının artırılması, onların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi, iş şəraitinin müasirləşdirilməsi və sosial rifahının yaxşılaşdırılmasını da əhatə edir. Baş prokuror qeyd edib ki, xidməti mənzillərlə təminat, əməkdaşların maddi rifah səviyyəsinin artırılması və digər sosial dəstək mexanizmləri dövlətin hüquq-mühafizə orqanlarına, o cümlədən prokurorluq sisteminə göstərdiyi yüksək diqqət və qayğının bariz nümunəsidir.

Daha sonra baş prokuror yeni mənzillərə baxış keçirib, yaradılmış şəraitlə tanış olub.

# Birinci vitse-prezident Mehriban Əliyeva Vaşinqtonda keçirilən görüşə dair paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair sosial şəbəkə hesablarında paylaşım edib.**



AZƏRTAC paylaşımı təqdim edir:

*"Bu gün Vaşinqtonda Azərbaycan Prezidenti, Amerika Birləşmiş Ştatlarının Prezidenti və Ermənistanın Baş naziri tərəfindən Birgə Bəyannamə imzalandı və sülh sazişi paraflanmaqla yekun sülh sazişi istiqamətində mühüm addım atıldı.*

*Bu tarixi hadisə münasibətilə xalqımızı təbrik edirəm!*

*Qoy, hər zaman sülh olsun! Torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman oğullarımıza Allah rəhmət eləsin! Uca Tanrı hər zaman doğma Azərbaycanımızı qorusun!"*

# Nazir Fərid Əhmədov Ağsu şəhərində vətəndaşları qəbul edib

**Ədliyyə naziri Fərid Əhmədov 8 avqust tarixində Ağsu şəhərində vətəndaşları qəbul edib.**



Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Ağsu, İsmayıllı, Şamaxı, Qobustan, Göyçay və Kürdəmir rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# BP 6 ayın hesabatını verdi

## Hasilat sabit, ixrac ahəngdar, proqnozlar nikbindir

**BP şirkətinin cari ilin birinci yarısının göstəricilərinə aid açıqlamasında ilk növbədə "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi haqqında son məlumatlar verilir.**

Operator olaraq BP bildirir ki, 2025-ci ilin yanvar-iyun aylarında AÇG-dən stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib. AÇG-dən ümumi hasilat gündə orta hesabla 327 min barel, yarım ildə təxminən 59 milyon barel, yəni 8 milyon ton olub. "Çıraq"dan gündəlik orta hasilat 21 min, "Mərkəzi Azəri"dən 86 min, "Qərbi Azəri"dən 75 min, "Şərqi Azəri"dən 42 min, "Dərinsulu Günəşli"dən 54 min, "Qərbi Çıraq"dan 24 min və ACE-dən ("Azəri Mərkəzi Şərqi") 25 min barel təşkil edib.

Fevralın 18-də "Mərkəzi Azəri" platformasından ilk neftin əldə olunmasının 20 illiyi qeyd olundu. İndiyədək bu platformadan ümumilikdə 1,1 milyard barel (154 milyon ton) neft hasil edilib.

İyun ayının sonunda AÇG-də ümumilikdə 143 neft hasilatı, 46 su injektor və 10 qaz injektor quyusu istismarda olub. İlin birinci yarısında bu yataqlar blokunda 3 neft hasilatı, 3 su injektor və 1 qaz injektor quyusunun qazılması tamamlanıb.

İlin birinci yarısında AÇG-dən Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 8 milyon kubmetr, ümumilikdə isə 1,5 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi laylarda təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Xatırladaq ki, AÇG-dəki sərbəst təbii qaz (STQ) ehtiyatlarının kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatı ilə bağlı işləri irəlilətmək məqsədilə keçən il sentyabrın 20-də AÇG üzrə mövcud Hasilatın Pay Bölgüsü Sazişinə (HPBS) yeni bir əlavə imzalanmışdı.

Belə ki, AÇG-nin xeyli iri həcmdə - 4 trilyon kub futadək çıxarıla bilən STQ ehtiyatlarının olduğu düşünülür.

Bu ilin birinci yarısında iki prioritet STQ layını hədəfləyən ilkin quyu qazılıb və tamamlanıb. Quyu mövcud "Qərbi Çıraq" platformasından qazılıb. Bu quyu olduqca əhəmiyyətlidir. Çünki o, hasilat vasitəsilə qiymətləndirmə aparmağa da imkan verəcək ki, bunun əsasında da gələcək işlənmə planlarını qurmaq mümkün olacaq. Hazırda həmin quyudan ilk qaz hasilatının əldə olunması istiqamətində bütün lazımi sualtı birləşdirmə işləri aparılır.

BP-nin sözügedən məlumatında bildirilir ki, birinci yarımildə AÇG və "Şahdəniz" yataqlarından neft və qazın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam edib. Bu dövrdə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə nəql olunmuş təqribən 13 milyon ton (təxminən 106 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 145 tankerə yüklənib və dünya bazarlarına yola salınıb.

"Şahdəniz" yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC-yə), Türkiyə (BOTAŞ-a) bazarlarına, çoxsaylı obyektlər üçün BTC-yə və Avropadakı alıcılara qaz çatdırılması davam edir. İlin ilk altı ayında yataqdan - "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birlikdə təqribən 14 milyard standart kubmetr qaz və təxminən 2 milyon ton (təqribən 16 milyon barel) kondensat hasil olunub. Mövcud "Şahdəniz" qurğularının hasilat gücü hazırda gündə təxminən 77,2 milyon (ildə təqribən 28,2 milyard) standart kubmetrdir.

"Şahdəniz"in yatağının işlənməsinin növbəti mərhələsi olan "Şahdəniz Kompressiya" (ŞDK) layihəsi üçün Ətraf Mühitə və Sosial-İqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi sənədi üzrə ictimaiyyətlə məsləhətləşmələrin müddəti aprel ayında bitib və sənədin yekun versiyası may ayında hökumət tərəfindən təsdiqlənib. İyunun 3-də isə "Şahdəniz" konsorsiumu ŞDK layihəsi üçün yekun investisiya qərarını elan edib. 2,9 milyard dollar dəyərində olan ŞDK layihəsində məqsəd yataqdakı aşağıtəzyiqli qaz ehtiyatlarının hasilatını təmin etmək və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

Tikinti işlərinin 2025-ci ilin sonlarında başlanacağı planlaşdırılır. Tikintinin 2029-cu ildə başa çatması ilə ŞDK platformasının həmin ildə "Şahdəniz Alfa"dan və 2030-cu ildə "Şahdəniz Bravo"dan çıxarılan qaz həcmlərini kompressiya etmək üçün hazır olacağı planlaşdırılır.

Xəzərdə geoloji kəşfiyyat işləri də davam edir. "Şəfəq-Asiman"da TPAO-nun qoşulması ilə layihəni irəli aparacaq ən uyğun variantın müəyyənləşdirilməsi üçün blokun bundan sonrakı qiymətləndirilməsi sürətləndiriləcək. Bu məqsədlə Aşağı Suraxanı layına bir quyunun qazılması da daxil olmaqla əlavə qiymətləndirmə işləri həyata keçiriləcək. Bu fəaliyyətlərə imkan yaratmaq üçün həmçinin HPBS-nin kəşfiyyat dövrü uzadılıb və BP bu dövr üçün operator olaraq qalır.

Bir neçə ay əvvəl BP həmçinin "Qarabağ" neft yatağının işlənməsi üzrə mövcud Risk Xidməti Sazişinə (RXS) və "Əşrəfi-Dan Ulduzu-Aypara" (ADUA) sahəsinə aid HPBS-yə qoşulub. BP bu iki sazişin hər birində SOCAR-dan 35 faizlik iştirak payı alıb.

BP həmçinin bildirir ki, bu ilin ikinci rübünün sonunda şirkətin işçiləri olan Azərbaycan vətəndaşlarının sayı 2395 nəfər təşkil edib və buraya müddətli müqavilə əsasında işləyənlər də daxildir.

2018-ci ilin ortalarından BP-nin ixtisaslı işçilərinin 90 faizi milli kadrlar, ixtisası olmayan işçilərin isə hamısı yerli vətəndaşlardır.

BP-də belə hesab edirlər ki, Xəzərdəki layihələrin uğuru həm də əməliyyatçının regiondakı ölkələrin əhalisi üçün bu layihələr vasitəsilə hiss edilən faydalar yaratmaq bacarığından asılıdır. 2025-ci ilin birinci yarısında BP və onun əməliyyatçı olduğu layihələrdəki tərəfdaşları belə sosial investisiya layihələrinə Azərbaycanda təxminən 0,7 milyon dollar vəsait xərcləyiblər. Bundan əlavə, BP ayrıca bir şirkət kimi öz adından Azərbaycanda sponsorluq etdiyi layihələrə ilin birinci yarısında təxminən 0,4 milyon dollar vəsait yönəldib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan-ABŞ əməkdaşlığı strateji tərəfdaşlığa doğru irəliləyir

## İlham Əliyev Azərbaycanı haqq etdiyi zirvəyə yüksəltdi

**Prezident İlham Əliyevin Vaşinqton sülh sammitində qalib ölkənin lideri kimi iştirakı Azərbaycanın qələbələr silsiləsinin növbəti bəndi, haqq işimizin dünyada qətiyyətlə qəbul etdirilməsinin daha bir təntənəli təsdiqi oldu. Bu tarixi hadisə 1988-ci ildən üzü bəri xalqımızın apardığı və çox çətinliklərdən, sınaqlardan keçən milli mübarizənin cənab İlham Əliyevin yürütdüyü məqsədyönlü və uzaqgörən siyasət sayəsində öz mantiqi və haqq etdiyi zirvəyə ucaldılması kimi mühüm anlam daşıyır.**



30 ilə yaxın davam edən mənasız sülh danışıqlarını nəhayətə yetirərək torpaqlarını hərb yolu ilə işğaldan qurtaran, ərazi bütövlüyünü, suverenliyini tam təmin edən Azərbaycanın diktə etdiyi şərtlər əsasında sülh müqaviləsinin imzalanmasına çox yaxınıq. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə sülh gündəliyinin nizamlanması, normallaşma istiqamətində real nəticələrin əldə olunması üçün Azərbaycan-Ermənistan liderlərinin Vaşinqton görüşü Cənubi Qafqazda dayanıqlı sülhə gedən yolda təkanverici rol oynayacaq.

### 33 ildən sonra haqq öz yerini tapdı

Prezident İlham Əliyevin Vaşinqtona işgüzar səfəri ABŞ-Azərbaycan əlaqələrində yeni və parlaq üfüqlər açmaqla yanaşı, bölgəyə davamlı sülh və sabitlik gətirəcəyi də reallıqdır. Dünya gündəmini zəbt edən və hər kəsin böyük maraqla izlədiyi bu səfər çərçivəsində "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalandı. Azərbaycan-ABŞ strateji tərəfdaşlığı aşağıdakı üç istiqaməti əhatə edir:

- Enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar;
- Süni intellekt və rəqəmsal infrastrukturun da daxil olduğu iqtisadi sərmayə;
- Müdafiə sahəsində satış, terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın da daxil olduğu təhlükəsizlik sahəsində əməkdaşlıq.

Yaradılan Strateji İşçi Qrupu regional bağlantılar infrastrukturunun və enerji sahəsində sərmayələrin genişləndirilməsi, eləcə də regional iqtisadi-ticari əməkdaşlığın irəlilədilməsi, həmçinin süni intellektin inkişafı kimi vacib məsələlərlə məşğul olacaq.

Məlum olduğu kimi, 1992-ci ildə "Azadlığı Müdafiə Aktı" adlı qanunun 907-ci bölməsinə düzəlişə əsasən ABŞ hökumətinin Azərbaycanın rəsmi strukturlarına yardım göstərilməsi qadağan olunub. Azərbaycana qərəzli yanaşma nümayiş etdirən Bayden adminstrasiyası dövründə 907-ci düzəlişin yenidən canlandırılması və bundan ölkəmizə qarşı təzyiq mexanizmi kimi istifadə edilməyə çalışılması kimi bədnam fəaliyyətlə üz-üzə qalmışdıq. Ancaq Prezident İlham Əliyevin həyata keçirdiyi məharətli diplomatik siyasət sayəsində bu təzyiqlər real nəticələrə gətirib çıxarmadı.

Bu baxımdan, dövlətimizin başçısının ABŞ-yə işgüzar səfəri zamanı Prezident Donald Trampın "Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişin icrasının dayandırılması haqqında sənəd imzalaması, həm iki ölkə arasında münasibətlərin dostluğa əsaslanması, həm də 33 illik haqsızlığa son verilməsi kimi mühüm anlamlar daşıyır.

### Dünya üçün tarixi gün

Ağ Ev rəhbəri davamlı olaraq Azərbaycanın regionla bağlı sülh səylərini dəstəkləyir. Bu baxımdan Prezident İlham Əliyevin Birləşmiş Ştatların Prezidenti Donald Trampın rəsmi dəvəti ilə ABŞ-yə tarixi səfəri də yalnız ölkələrimiz arasındakı münasibətlərin dərinləşməsi baxımından deyil, həm də regional sabitlik baxımından xüsusi əhəmiyyət daşıyır.

ABŞ-yə işgüzar səfəri çərçivəsində Prezident İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla görüşünün mühüm əhəmiyyət kəsb etməsi və ondan böyük gözləntiləri olduğunu avqustun 7-də ABŞ Prezidenti Donald Tramp öz "Truth" hesabında bu fikirlərlə ifadə edib:

"Mən Azərbaycan Prezidenti İlham Əliyevi və Ermənistanın baş naziri Nikol Paşinyanı sabah Ağ Evdə tarixi Sülh Sammiti üçün qəbul etməyi səbirsizliklə gözləyirəm".

Tramp hər iki xalqın uzun illərdir ki, müharibə apardığını və bunun da minlərlə insanın ölümü ilə nəticələndiyini bildirib.

"Bir çox lider bu müharibəni dayandırmağa çalışıb, amma indiyə qədər heç bir nəticə əldə olunmayıb. Bu isə "Trump" sayəsində mümkün oldu. Mənim administrasiyam uzun müddətdir ki, hər iki tərəflə təmasdadır. Sabah Prezident Əliyev və baş nazir Paşinyan Ağ Evdə rəsmi sülh sazişinin imzalanması üçün mənə qoşulacaqlar" deyə Tramp qeyd edib.

O bildirib ki, Birləşmiş Ştatlar həmçinin hər iki ölkə ilə ikitərəfli sazişlər imzalayacaq ki, bu da iqtisadi imkanları birgə araşdırmağa və Cənubi Qafqaz regionunun tam potensialını ortaya çıxarmağa imkan verəcək: "Mən bu cəsarətli liderlərlə Ermənistan və Azərbaycanın böyük xalqları üçün düzgün iş gördüklərinə görə çox fəxr edirəm. Bu, Ermənistan, Azərbaycan, ABŞ və dünya üçün tarixi gün olacaq", - deyə Tramp əlavə edib.

Qeyd edək ki, Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Vaşinqton görüşünün nəticəsi olaraq Birgə Bəyannamə imzalanıb. Sənəd ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanıb.

Məlum olduğu kimi, Ermənistan-Azərbaycan sülh müqaviləsinin imzalanması üçün İrəvanın Bakının beynəlxalq hüquqa dayanan tələblərini yerinə yetirməsi lazımdır. Bəlli olduğu kimi, Ermənistan konstitusiyasının preambula hissəsində müstəqillik bəyannaməsinə istinadən ərazi iddiaları yer alır.

Həmçinin Qarabağ münaqişəsi artıq həll edildiyi üçün ATƏT-in Minsk qrupunun fəaliyyəti de-fakto dayanıb. Bu məsələnin de-yuri də təsdiqini tapması, yəni adıçəkilən qrupun ləğvi üçün iki ölkə birgə müraciət etməlidir.

Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin imzaladığı Birgə Bəyannamədə Minsk qrupunun ləğv edilməsi üçün iki ölkənin ATƏT-in Baş katibinə birgə müraciət edəcəyi təsdiqlənir.

Eyni zamanda Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin və sülhün qurulmasına dair Sazişin mətni paraflanandan sonra adıçəkilən "sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün növbəti addımların atılması"nın zəruriliyi tanınır. Yəni yekun sülh sazişinin imzalanması üçün əsas tələblərdən biri - Ermənistan konstitusiyasının dəyişdirilməsinin zəruriliyi təsdiq olunur.

Həmçinin bölgədə kommunikasiyaların açılması məsələsi də öz həllini tapır. 44 günlük müharibədən sonra Prezident İlham Əliyevin bəyanatlarında Azərbaycanın əsas hissəsinin Naxçıvana quru yolla maneəsiz keçidinin təmin edilməli olduğu öz əksini tapırdı. Dövlət başçımızın bu qəti tələbi də Ermənistan tərəfindən qəbul edildi.

Belə ki, imzalanan Birgə Bəyannamədə ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəliş təsdiq olunur. Yəni Zəngəzur dəhlizi reallaşır.

Bütün bunlar isə nəyi, necə, nə vaxt etməyi yaxşı bilən İlham Əliyevin 22 illik prezidentliyi dövründə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, beynəlxalq aləmdə nüfuz qazanması, qlobal proseslərin həllində həlledici gücə çevrilməsi istiqamətində atdığı praqmatik və nəticəyönümlü addımların öz məntiqi sonluğuna yetməsi deməkdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Tramp Administrasiyasının cəhdləri dayanıqlı sülh üçün şans ola bilər

**Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə ABŞ-yə işgüzar səfəri və bu səfərin özlüyündə məhz xüsusi dəvətlə reallaşması tarixi bir hadisədir. Məsələni ilk öncə regional təhlükəsizlik zəminində təhlil etsək, görərik ki, Azərbaycan və Ermənistan arasında Bakının təşəbbüsləri ilə başlamış sülh prosesinin sərhədlərin delimitasiya və demarkasiyasında əldə olunan ilkin müsbət nəticələr, o cümlədən sülh müqaviləsinin şərtlərinin razılaşdırılması fonunda özünün məntiqi və uğurlu sonluğuna yaxınlaşması üçün tarixi şans yaranıb.**



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında qeyd edib ki, Azərbaycan tərəfi haqlı olaraq sülh müqaviləsinin dayanıqlı olması üçün onun hüquqauyğunluğunun təmin edilməsini, yəni mövcud müqavilənin şərtləri ilə ziddiyyət təşkil edən Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında müddəaların aradan qaldırılmasının tərəfdarıdır. Eyni zamanda rəsmi Bakı hesab edir ki, Ermənistan Azərbaycanın hərbi-siyasi qələbələri ilə yaranmış və beynəlxalq hüququn aliliyinində ehtiva olunan mövcud status-kvonu tanımalı, münaqişənin başa çatması reallığı ilə barışmalıdır. "Bunun üçün isə şifahi bəyanatların heç bir önəmi yoxdur və Ermənistan bir zamanlar münaqişənin tənzimlənməsi məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunun buraxılmasına dair konkret mövqe ifadə etməklə cari status-kvonu qəbul etdiyini göstərə bilər. Onsuz da sirr deyil ki, ATƏT-in Minsk qrupu heç bir funksionallığa malik olmayan ölü bir institutdur. Üstəlik, bu struktur fəaliyyəti dövründə nəinki hər hansı irəliləyişə nail olmaq, əksinə, münaqişənin davamlılığında maraqlı tərəf kimi çıxış etmiş, sülh prosesini inhisara almaqla real səmərə verə biləcək amil və addımları nizamlama prosesindən kənar saxlamışdı. Bu mənada yarandığı gündən heç bir formada etimad təlqin etməyən bir strukturun 5 il öncə mandatının əsasında dayanan problemin həlli fonunda formal olaraq "mövcudiyyətini qorumağa çalışması" Ermənistana heç nə vəd edə bilməz", - deyə o bildirib.

Deputat deyib ki, Ermənistan dövləti təcavüzkar mahiyyətli milli ideoloji hədəflərindən imtina etməsə də, erməni cəmiyyəti revanşist əhvaldan geri çəkilməsə də, gedişat göstərir ki, qərb qonşumuz artıq Azərbaycanın geri dönüşü olmayan bir geosiyasi konfiqurasiya yaratdığının və Ermənistanın sülhə əngəl kimi çıxış etdikcə dalan və qeyri-suveren dövlət statusunun dərinləşdiyinin fərqindədir. Həmçinin davamlı şəkildə Ermənistanı münaqişənin həllindən yayındıran qüvvələrin heç birinin regionda nə Azərbaycan qarşısında şansı var, nə də Ermənistana hər hansı fayda vəd edə bilər. Bu mənada ötən dövr ərzində əldə olunan müsbət meyillərə əsaslanaraq Ermənistanın süni əngəlləri və kənar müdaxilələri bir kənara qoyub sülhə doğru addımlaması bu ölkə üçün yeganə nicat yoludur. Qısa müddət öncə Əbu-Dabidə də ifadə olunan iradəyə əsaslanaraq demək olar ki, Ermənistan kənar təsirlərdən azad düşünəcək qətiyyət tapa bilsə, sülh müqaviləsinin imzalanması tam realdır və bu mənada, bölgəyə artıq daha praqmatik baxışa malik olan və Demokratlar iqtidarından fərqli olaraq regionda maraqlarını münaqişədə yox, sülh və sabitlik şəraitində əməkdaşlıqda görən Tramp Administrasiyasının cəhdləri dayanıqlı sülh üçün yaxşı şansa çevrilə bilər. Ermənistan üzərində digər dövlətlərin də təsir imkanlarını, o cümlədən bu ölkə daxilində qeyri-stabil durumu nəzərə alaraq proqnozlaşdırmaq, təbii ki, asan deyil. Lakin ümid etmək olar ki, Vaşinqton görüşü nəticəsində sülh istiqamətində ciddi və hətta həlledici addımlara nail olmaq mümkündür. Bu mənada əminliklə demək olar ki, çox ciddi tarixi proseslərə şahidlik edirik.

B.Məhərrəmov qeyd edib ki, Azərbaycan hərbi-siyasi qələbələri ilə BMT Təhlükəsizlik Şurasının qətnamələrini realizə edib, bölgədə yeni reallıq yaradaraq region üçün tarixi sülh və təhlükəsizlik, dayanıqlı inkişaf perspektivi ortaya qoyub: "Belə bir məqamda dünyanın supergücü tərəfindən dövlət başçımızın dəvət olunması bu reallıqların qlobal miqyasda rəsmiləşməsi deməkdir. Bu çərçivədə cənab Trampın həmin reallıqları müzakirə etmək üçün Azərbaycan Prezidenti ilə ABŞ-nin paytaxtında, dünyanın faktiki mərkəzində - Ağ Evdə müzakirələr aparması özlüyündə çox ciddi bir mərhələdir. Digər tərəfdən, proseslərə yalnız ABŞ-Azərbaycan münasibətləri çərçivəsində baxılmamalıdır. Amerika və Azərbaycan arasında ciddi əməkdaşlıq tarixi mövcuddur, eyni zamanda ötən dövr ərzində kifayət qədər enişli-yoxuşlu bir mərhələ keçilib. Azərbaycan ABŞ-nin ötən dövrkü administrasiyası tərəfindən ədalətsiz yanaşmalarla üzləşib, beynəlxalq arenada məqsədli formada haqsız vəziyyətlərə düşürülməyə çalışılıb. Amma cənab Donald Tramp indiki məqamda Azərbaycanın əhəmiyyətini, rəsmi Bakının xüsusən proaktiv, balanslaşdırılmış xarici siyasət kursunun uğurlu istiqamətlərini aydın şəkildə görən kifayət qədər praqmatik siyasətçidir və qarşılıqlı bərabərhüquqlu əməkdaşlıq çərçivəsində hansı nailiyyətlərin, uğurların əldə ediləcəyini aydın qiymətləndirə bilir. Amerikanın maraqlarının yalnız bu şəkildə - əsaslı şəkildə təmin ediləcəyini haqlı olaraq başa düşür. Yəni əgər əvvəlki dövrdə Amerika-Azərbaycan münasibətləri Azərbaycan-Ermənistan və yaxud Amerika-Ermənistan prizmasından qiymətləndirilirdisə, Donald Tramp praqmatik siyasətçi kimi bu prosesləri birbaşa, yəni real vəziyyəti qiymətləndirərək dəyərləndirə bilir".

Deputat bildirib ki, bölgə üçün nəhayət, uzunmüddətli, gözlənilən sülh istiqamətində mühüm addımlar atıla bilər. Aydındır ki, Azərbaycanın bu istiqamətdə kifayət qədər aydın mövqeyi var. Azərbaycan Prezidentinin qalib tərəf, müzəffər lider olmasına baxmayaraq, sülh təşəbbüsləri məhz cənab İlham Əliyevin səyləri ilə davam edib. Sərhədlərin delimitasiya və demarkasiyasında da çox ciddi nəticələrə məhz cənab İlham Əliyevin təşəbbüsü ilə nail olmuşuq, eyni zamanda sülh müqaviləsinin mətninin razılaşdırılması da məhz dövlət başçısının yaratdığı reallıqların nəticəsidir. İndiki məqamda Ermənistan hətta özünə belə lazım olmayan sülhü ləngitmə alətlərini bir kənara qoymalıdır. Ermənistan bu əngəlin aradan qaldırılması istiqamətində iradə ortaya qoya, həmçinin Azərbaycanın ərazi bütövlüyü məsələsində konkret, real niyyətini bəyanatlarda yox, qanunvericilik aktlarında da ifadə edə bilsə, yəni Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı məsələlərdə aydın mövqe ifadə edib konstitusiyasından, digər qanunvericilik aktlarından həmin müddəaları çıxarsa, bu, artıq real sülhə gedən konkret addım ola bilər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "ExxonMobil" SOCAR-ın sınanmış tərəfdaşıdır

### Prezident İlham Əliyevin Vaşinqtona işgüzar səfəri çərçivəsində iki şirkət arasında daha bir sənəd - "Əməkdaşlıq haqqında Memorandum" imzalanıb

**Xəbər verildiyi kimi, avqustun 7-də Prezident İlham Əliyev Vaşinqtonda ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff ilə görüşüb. Əvvəlcə dövlətimizin başçısının və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR-la (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanıb.**

Sənədi Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və "ExxonMobil" şirkətinin vitse-prezidenti Con Ardill imzalayıblar. Sonra dövlətimizin başçısı İlham Əliyev ilə ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun görüşü olub. Görüşdə Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərinin ikitərəfli münasibətlərimizin gündəliyinin və regional məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığı bildirilib.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarının strateji müstəvidə əməkdaşlığının inkişaf perspektivləri, Ermənistanla Azərbaycan arasında normallaşma prosesi və regiondakı sülh gündəliyinə dair fikir mübadiləsi aparılıb.

SOCAR-la "ExxonMobil" arasında "Əməkdaşlıq haqqında Memorandum"un imzalanması iki ölkə arasında enerji əməkdaşlığının inkişaf perspektivlərindən xəbər verir. Qeyd edək ki, ABŞ-nin dünyaşöhrətli "ExxonMobil" şirkəti ölkəmizdə xeyli vaxtdır yaxşı tanınır. Bu şirkət Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının işlənməsi layihəsinin iştirakçısıdır. Başqa sözlə, "Əsrin müqaviləsi"nin irəliyə doğru addımladığı, nailiyyətlərlər əldə etdiyi illərdə Azərbaycanda olub.

AÇG-də hazırkı iştirak paylarına diqqət yetirmək də yerinə düşər: BP (30,37 faiz, o, həm də operatordur), SOCAR (31,65 faiz), MOL (9,57 faiz), İNPEKS (9,31faiz), "ExxonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), İTOÇU (3,65 faiz), ONGC Videş (2,92 faiz). Göründüyü kimi, "ExxonMobil" bu gün də AÇG-nin səkkiz iştirakçısının biridir və layihədə sanballı, yəni 6,79 faizlik paya malikdir.

"ExxonMobil" eləcə də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin səhmdarlarından biridir və burada 2,5 faizlik payla iştirak edir.

Əslində, bunlar şərhə ehtiyacı olmayan faktlardır. Çünki istər AÇG, istərsə də BTC ölkəmizin yaratdığı etibarlı əməkdaşlıq və tərəfdaşlıq sayəsində gerçəkləşdirilən önəmli layihələrdir.

Bir qədər də "ExxonMobil"in özü haqqında: bu, təkcə ABŞ-nin deyil, dünyanın ən böyük neft şirkətlərindən biri sayılır. Şirkətin baş ofisi Texas ştatının Dallas şəhərinin ətrafında olan İrvinqdə yerləşir. Əsas neft ehtiyatları Asiya və ABŞ-də, təbii qaz isə ABŞ, Avstraliya, Asiya və Avropada yerləşir




Hazırkı şirkət 1999-cu ildə ABŞ-nin ən böyük neft şirkətləri "Exxon" və "Mobil"in birləşməsi nəticəsində yaranıb.

"ExxonMobil"lə Azərbaycan arasında daimi təmaslar mövcuddur. Çox uzağa getməyək, elə bu ilin mart ayında uzunmüddətli enerji tərəfdaşlığının inkişafı üçün yeni imkanlar müzakirə olunub. Bu barədə energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında məlumat vermişdi. O, "ExxonMobil" şirkətinin vitse-prezidenti John Ardill ilə səmərəli görüşü olduğunu, tərəfdaşlığın inkişafı üçün yeni imkanların dəyərləndirildiyini bildirmişdi.

Energetika Nazirliyinin məlumatına görə, görüşdə şirkətlə AÇG və BTC layihələri üzrə uzunmüddətli əməkdaşlıq əlaqələrindən məmnunluq ifadə edilib. Yeni əməkdaşlıq imkanları, həmçinin şirkətin qlobal təcrübəsi və planları ilə bağlı məsələlər nəzərdən keçirilib.

J.Ardill metan emissiyalarının, əməliyyat xərclərinin azaldılmasını, hasilatın artırılmasını təmin edən müasir texnologiyaların tətbiqi ilə həyata keçirilən layihələr, eləcə də karbohidrogen sektorunda enerji təchizatının elektrikləşdirilməsi və hidrogenin inkişafı istiqamətində görülən işlər barədə məlumat verib.

P.Şahbazov isə Azərbaycanın enerji balansında neft, qaz, bərpaolunan enerjinin yer almasını təşviq edən enerji siyasəti, müxtəlif marşrutları əhatə edən "yaşıl enerji" dəhlizləri və bərpaolunan enerjinin elektrik enerjisinin istehsal gücündə 2030-cu ildə 35,5 faizə çatdırmağı hədəfləyən layihələrindən bəhs edib. Bildirilib ki, Xəzər dənizinin Azərbaycan seqmentindəki külək enerjisi potensialı Avropa ölkələrinin enerji ehtiyaclarını qarşılamaq üçün alternativ bir mənbə kimi təklif olunur. Bərpaolunan enerjinin daha da inkişaf etdirilməsi məqsədilə batareya sistemləri və saxlama texnologiyalarına diqqət yetirilir. Həmçinin hidroakkumulyasiya sistemləri üzərində işlər aparılır. Söhbət zamanı müasir enerji reallıqları və enerji təhlükəsizliyi ilə bağlı qlobal çağırışlar barədə də fikir mübadiləsi edilib.

İyun ayının əvvəlində isə "Bakı Enerji Həftəsi" çərçivəsində SOCAR ilə "ExxonMobil Corporation" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi SOCAR-ın prezidenti Rövşən Nəcəf və "ExxonMobil Corporation" şirkətinin vitse-prezidenti John Ardill Con imzalayıblar. Sənəd Azərbaycanın neft-qaz sahəsində birgə əməkdaşlığını nəzərdə tutur.

Bu günlərdə Prezident İlham Əliyevin və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR-la "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanması isə bir daha göstərdi ki, iki şirkət arasında enerji sektorundakı uzunmüddətli tərəfdaşlıq əlaqələri son zamanlar daha da gücləndirilib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Sülh prosesində tarixi gün

## Azərbaycan Prezidentinin Ermənistanın baş naziri ilə Vaşinqtonda keçirəcəyi görüş dünyanın ən nüfuzlu media qurumlarının diqqətində


Trump, Aliyev ile Paşinyan'ın Beyaz Saray'da "barış anlaşması" imzalayacaklarını açıkladı


Reuters
Explainer: What is the status of peace talks between Armenia and Azerbaijan?


G|M|F
Is an Armenia-Azerbaijan Peace Agreement Really Close?


Trump to host Armenia, Azerbaijan for historic 'Peace Signing'


POLITICO
US brokers a deal between long-hostile Armenia and Azerbaijan


THE HILL
Trump to host leaders of Azerbaijan and Armenia for peace ceremony


**Birləşmiş Ştatların paytaxtında Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın Bakı ilə İrəvan arasında sülh sazişi ilə bağlı qarşıdakı görüşü dünyanın nüfuzlu media orqanlarının diqqət mərkəzindədir.**

AZƏRTAC xəbər verir ki, "Reuters" agentliyinin dərc etdiyi geniş məqalədə qeyd olunur ki, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan cümə günü Ağ Evdə ABŞ Prezidenti Donald Trampla görüşəcəklər. Bu, görüş 40 ilə yaxındır davam edən münaqişənin həlli üçün sülh sazişi üzərində çalışan tərəflərin razılıq əldə edəcəyi ümidlərini gücləndirir.

Məqalədə qeyd olunur ki, Qarabağ bölgəsi beynəlxalq səviyyədə Azərbaycanın ərazisi kimi tanınıb və Sovet İttifaqının süqutundan sonra ermənilər tərəfindən işğala məruz qalıb. Lakin 2020-ci və 2023-cü illərdə Azərbaycan həmin əraziləri azad edib. "Sülh sazişinin imzalanmasının qarşısında duran əsas maneələrdən biri Ermənistanın konstitusiyası məsələsidir. Azərbaycan Ermənistandan ölkənin 1990-cı il müstəqillik bəyannaməsinə istinad edən konstitusiyanın preambulasını dəyişdirməyi tələb edir... Bakı Ermənistan konstitusiyasında Qarabağa istinad edilməsini Azərbaycana ərazi iddiası kimi qiymətləndirir", - deyə agentlik vurğulayır.

"Reuters" diqqətə çatdırır ki, sülh yolunda digər maneə Ermənistan ərazisindən təxminən 32 kilometrlik hissəsindən keçəcək və Azərbaycan ərazisinin böyük hissəsini Bakının müttəfiqi Türkiyə ilə həmsərhəd Azərbaycan anklavı olan Naxçıvanla birləşdirəcək təklif edilən tranzit dəhlizidir. "Azərbaycan dəhlizi istəyir, lakin İrəvanın tezliklə girişi ləğv edə biləcəyi ehtimalına görə Ermənistanın ona nəzarət etməsini istəmir. ABŞ planlaşdırılan dəhlizin idarəçiliyini öz üzərinə götürməyi təklif edib, lakin Ermənistan gələn il keçiriləcək seçkilər ərəfəsində Paşinyan üçün siyasi cəhətdən həssas olan perspektivə ehtiyatla yanaşıb".

Türkiyənin Anadolu agentliyinin Vaşinqton müxbirinin məqaləsində qeyd olunub ki, Donald Tramp avqustun 7-də verdiyi açıqlamada Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanı Ağ Evdə qarşılayacağını səbirsizliklə gözlədiyini açıqlayıb. O qeyd edib: "Sabah (avqustun 8-də-red.) rəsmi sülh sazişi ilə bağlı sənədə imza atacaqlar". ABŞ Prezidenti iki ölkənin uzun illərdir müharibə vəziyyətində olduğunu diqqətə çatdıraraq deyib: "Ermənistan və Azərbaycan xalqları üçün doğru olanı edən cəsur liderlərlə qürur hissi keçirirəm. Bu, Ermənistan, Azərbaycan, ABŞ, həmçinin dünya tarixi üçün tarixi bir gün olacaq".


The Washington Times
Armenia-Azerbaijan peace deal could get U.S. rights to transit corridor


The Guardian
Trump claims to have reached 'historic' peace deal between Armenia and Azerbaijan

Agentlik əlavə edib ki, Donald Tramp hər iki ölkə ilə ayrı-ayrı iqtisadi müqavilələr imzalanacağını da bildirib.

ABŞ-nin Alman Marşal Fondunun (GMF) saytında dərc olunan məqalədə qeyd olunur ki, Ermənistan və Azərbaycan may ayında sülh sazişi layihəsinin mətni üzərində razılaşdıqlarını bildiriblər. Bununla belə, Azərbaycan rəsmiləri layihənin tezliklə paraflanması ilə bağlı daha çox danışırlar. Bu əlavə prosessual addım siyasi baxımdan eskalasiya riskini müəyyən qədər azalda bilər. Azərbaycan tələb edir ki, Ermənistan konstitusiyasından ərazi iddiaları ehtiva edən bənd çıxarılsın, həmçinin iki ölkə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) birgə məktub göndərərək 1992-ci ildə onlar arasında münaqişənin sülh yolu ilə həllini asanlaşdırmaq üçün yaradılmış Minsk qrupunu ləğv etməyi xahiş edir.

GMF qeyd edir: "Zəngəzur dəhlizi probleminin həlli isə daha çətindir. Bu, Azərbaycanın Ermənistanın Sünik vilayəti vasitəsilə öz Naxçıvan anklavına insanların və malların quru yolu ilə sərbəst hərəkət etməsi tələbinə aiddir. Məsələ təkcə Bakı ilə İrəvan arasındakı fikir ayrılıqlarını əhatə etmir, həm də İran və Rusiyanın bəzi mümkün həll yollarına qarşı kəskin etirazdır".

"The Washington Post" qəzetinin dərc etdiyi məqalədə qeyd olunur ki, Ermənistan və Azərbaycan rəsmilərinin Ağ Evdə ABŞ-yə strateji tranzit dəhlizinə müstəsna inkişaf hüququ verən sülh sazişi imzalayacağı gözlənilir. Ermənistanın baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyev cümə günü Ağ Evə gəlməyə hazırlaşır. ABŞ rəsmiləri "Reuters" agentliyinə bildiriblər ki, "Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu" adlanan pakt Azərbaycanı Ermənistan vasitəsilə Azərbaycanın eksklavı olan Naxçıvanla birləşdirəcək və ABŞ-yə inkişaf hüququ verən sənəd olacaq.

Qəzet yazır: "Rəsmilər bildiriblər ki, Asiyadan Avropaya quru marşrutunu qısaldan dəhlizdə ABŞ həmin torpaqları infrastruktur və idarəetmə üçün konsorsiuma subicarəyə verəcək. Ümid odur ki, tranzit dəhlizi gələcək döyüşləri dayandıracaq və regionda kommunikasiyaları açacaq. Trampın sözlərinə görə, sülhün imzalanması ilə birlikdə ABŞ hər iki ölkə ilə ikitərəfli sazişlər imzalayacaq ki, bu da Cənubi Qafqaz regionunun potensialını tam üzə çıxaracaq".

"The Guardian" nəşrinin "Tramp Azərbaycanla Ermənistan arasında tarixi sülh sazişinə nail olacağını iddia edir" sərlövhəli məqaləsində qeyd olunur ki, ABŞ Prezidenti Donald Tramp cümə günü Ermənistan və Azərbaycan liderlərini iki keçmiş sovet respublikası arasında onilliklərlə davam edən hərbi əməliyyatlara son qoymaq məqsədi daşıyan "Tarixi sülh sammiti"nə evsahibliyi edəcəyini açıqlayıb. "İki ölkə keçən ay Birləşmiş Ərəb Əmirliklərində də sülh sazişi ilə bağlı danışıqlar apardılar, lakin sıçrayışın çətin olduğu sübut edildi. ABŞ Prezidenti bununla əlaqədar deyib: "Bir çox lider indiyə qədər müharibəyə son qoymağa çalışdı, heç bir uğur əldə etmədilər. Mənim administrasiyam kifayət qədər uzun müddətdir ki, hər iki tərəflə əməkdaşlıq edir, doğru şey etdikləri üçün bu cəsur liderlərlə fəxr edirəm".

Qəzet vurğulayır ki, müxtəlif beynəlxalq münaqişələrdə vasitəçilik səylərinin Nobel Sülh mükafatına layiq olduğuna əminliyini ifadə edən ABŞ lideri əlavə edib ki, Vaşinqton "iqtisadi imkanları birgə həyata keçirmək üçün hər iki ölkə ilə" ikitərəfli müqavilələr imzalayacaq və bu, Cənubi Qafqaz regionunda potensialı ortaya çıxara bilər.

"France24" telekanalının saytında dərc olunan məqalədə Donald Trampın danışıqlarla bağlı fikirləri yer alıb, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtonda ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff ilə görüşü barədə məlumat verilib. Qeyd olunub ki, görüş əsnasında Azərbaycanın SOCAR və ABŞ-nin "ExxonMobil" şirkətləri arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanıb. Tərəflər həmçinin Azərbaycan liderinin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərinin ikitərəfli münasibətlərin gündəliyinin və regional məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığını bildiriblər, Ermənistanla Azərbaycan arasında normallaşma prosesi və regiondakı sülh gündəliyinə dair fikir mübadiləsi aparıblar.

"Politico" nəşrinin "ABŞ Ermənistanla Azərbaycan arasında uzun sürən düşmənçiliyə son qoyur" sərlövhəli məqaləsində Ağ Evin mənbələrinə istinadla qeyd edilir ki, uzun müddətdir davam edən münaqişənin yumşaldılmasının açarı tranzit dəhlizinə dair sazişdir ki, bu sənədə Azərbaycan və onun Zəngəzur dəhlizi kimi tanınan Naxçıvan anklavı arasında Ermənistan ərazisinin dağlıq hissəsinin inkişaf etdirilməsi öhdəliyi daxildir. Mənbələrdən biri qeyd edib ki, "biz "parçalardan birinin blokunu aça bilsək, bəlkə də qalan hissələr yerinə düşməyə başlayar".

Nəşr yazır ki, birgə bəyannamə uzun müddətdir düşmən olan iki ölkə tərəfindən imzalanmış ilk ikitərəfli sənəd olacaq. Xarici işlər nazirlərinin tərəflərin mart ayında razılaşdıqlarını, lakin o vaxtdan bəri yavaş irəliləyiş əldə etdiklərini dedikləri müqavilənin mətninin paraflanması gözlənilir.

"The Hill" nəşri Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın Vaşinqton görüşünü tarixi hadisə adlandırıb və qeyd edib ki, Prezident Donald Tramp uzun illərdir düşmən olan bu iki ölkə arasında sülhə nail olunması səylərini yüksək qiymətləndirir. İmzalanması gözlənilən razılaşma ABŞ-nin iki ölkənin Sovet İttifaqından müstəqillik əldə etdikdən sonra yaranan münaqişəyə son qoymaq üçün onilliklər ərzində göstərdiyi səylərin kulminasiya nöqtəsidir. Vaşinqton Azərbaycanın əsas hissəsini Naxçıvan eksklavı ilə birləşdirəcək "Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu" adlanan dəhlizə böyük əhəmiyyət verir. Ermənistan ABŞ-yə Zəngəzur dəhlizinin 99 il müddətinə eksklüziv xüsusi inkişaf hüquqlarının verilməsinə razılıq verib. ABŞ torpağı dəmir yolu, neft, qaz və fiber-optik xətləri və 27 millik dəhliz boyunca elektrik enerjisinin ötürülməsini inkişaf etdirəcək konsorsiuma subicarəyə verəcək.

## Sülhün təminatında Vaşinqton görüşünün əhəmiyyəti mühümdür



**ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan Ağ Evdə görüşəcək. Trampın "tarixi Sülh Sammiti" adlandırdığı bu görüş, yalnız davamlı sülhün əldə edilməsi məqsədini daşımır, həm də bölgənin gələcək siyasi, iqtisadi və təhlükəsizlik arxitekturasını formalaşdıracaq bir mərhələ kimi qiymətləndirilə bilər.**



Milli Məclisin deputatı Elçin Mirzəbəyli "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, bu xüsusda ilk növbədə Azərbaycan və ABŞ prezidentlərinin görüşünə diqqət çəkmək lazımdır. İlham Əliyev-Donald Tramp görüşü təkcə iki liderin siyasi dialoqu deyil, həm də Azərbaycan-ABŞ münasibətlərində yeni bir mərhələnin başlanğıcıdır. "2025-ci ilin yanvarından etibarən ABŞ Prezidenti postuna qayıdan Donald Tramp fəaliyyətinin ilk aylarından etibarən xarici siyasətində daha praqmatik və nəticəyönlü yanaşma sərgiləyir. Bu yanaşmanın əsas hədəflərindən biri də uzun illərdir münaqişə və qarşıdurma ilə yadda qalan regionlarda dayanıqlı sabitliyin təmin olunmasıdır. Cənubi Qafqaz isə bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir",- deyə o əlavə edib.

E.Mirzəbəyli vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin Ağ Evə dəvəti və burada həm ikitərəfli, həm də Ermənistanın baş naziri ilə birlikdə üçtərəfli formatda danışıqlar aparılması, əslində, Vaşinqtonun regiona baxışının dəyişdiyini göstərir. Əgər əvvəlki administrasiyalar əsasən siyasi bəyanatlar verməklə və protokol görüşləri ilə məhdudlaşdırırdılarsa, Tramp administrasiyası bu prosesi konkret nəticəyə yönəltmək istəyir. Onun sosial şəbəkədə verdiyi bəyanat da təsadüfi deyil. ABŞ Prezidenti açıq şəkildə həm sülh sazişinin, həm də iqtisadi əməkdaşlıqla bağlı sənədlərin imzalanacağına işarə edir. Bu, diplomatik dillə desək, danışıqların artıq final mərhələsinə çatdığını göstərir.

Deputat bildirib ki, Azərbaycan-ABŞ ikitərəfli sənədinin məzmunu barədə rəsmi açıqlamalar olmasa da, gözləntilər kifayət qədər aydındır: "Burada enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya dəhlizləri, investisiya təşviqi, yüksək texnologiyalar sahəsində əməkdaşlıq və müdafiə sənayesində əlaqələrin dərinləşdirilməsi kimi istiqamətlər üstünlük təşkil edə bilər. Xüsusilə Azərbaycanı Avropanın enerji təhlükəsizliyində əsas tərəfdaş kimi tanıyan ABŞ üçün Bakı ilə strateji münasibətlərin möhkəmləndirilməsi qlobal geosiyasi balans baxımından önəmlidir. Bu sənəd həmçinin Azərbaycan iqtisadiyyatına yeni Amerika sərmayələrinin cəlb olunması və texnoloji transfer imkanlarının genişlənməsi üçün hüquqi baza yarada bilər".

O qeyd edib ki, görüşün digər mühüm istiqaməti isə Azərbaycanla Ermənistan arasında sülhün təmin olunmasıdır. Mövcud məlumatlara görə, imzalanacaq sənəd bir neçə variantdan biri ola bilər: ya razılaşdırılmış sülh müqaviləsinin mətni paraflanacaq, ya da niyyət protokolu imzalanacaq ki, bu da yaxın aylarda müqavilənin tam imzalanmasına zəmin yaradacaq. Daha az ehtimal olunan, amma istisna edilməyən variant isə sülh müqaviləsinin birbaşa imzalanmasıdır. Hər üç halda Azərbaycanın bu prosesdəki mövqeyi prinsipialdır: ölkənin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin tanınması danışıqların əsasında dayanır. İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasət bu prinsiplərin heç bir güzəştə getmədən reallaşdırılmasını təmin etməyə yönəlib və nəticə göz qabağındadır. "Tarixi reallıq ondan ibarətdir ki, Azərbaycan 2020-ci il Vətən müharibəsindən sonra regionda tamamilə yeni geosiyasi düzən formalaşdırıb. Məhz bu reallıq sülh prosesini mümkün edib və indi Vaşinqton görüşü həmin prosesin beynəlxalq legitimləşməsi istiqamətində mühüm addım ola bilər. Tramp administrasiyasının təşəbbüsü ilə keçirilən görüş həm də ABŞ-nin Cənubi Qafqazda yeni diplomatik fəallığının göstəricisidir. Bu fəallıqdan Azərbaycanın qazancları yalnız siyasi deyil, həm də iqtisadi və təhlükəsizlik müstəvisində olacaq", - deyə deputat bildirib.

Onun sözlərinə görə, əgər Ağ Evdə imzalanacaq sənədlər gözlənilən məzmunu əks etdirərsə, Azərbaycan bir tərəfdən, Ermənistanla uzunmüddətli sabitliyin əsasını qoyacaq, digər tərəfdən isə, ABŞ ilə strateji tərəfdaşlığını yeni mərhələyə yüksəldəcək. Bu isə təkcə ikitərəfli münasibətlərin möhkəmlənməsi deyil, həm də regionun qlobal iqtisadi və nəqliyyat xəritəsində Azərbaycanın rolunun daha da artması deməkdir. Beləliklə, Vaşinqtondakı bu əlamətdar gün Azərbaycanın son onilliklərdə qazandığı ən mühüm diplomatik uğurlardan biri kimi tarixə düşə bilər.

E.Mirzəbəyli deyib ki, Azərbaycanla ABŞ arasında imzalanması gözlənilən sənədin məzmunu ilə bağlı açıq mənbələrdə yer alan məlumatlar və diplomatik dairələrdə dolaşan ehtimallar göstərir ki, bu razılaşma enerji, nəqliyyat, logistika, investisiya və innovasiya kimi sahələri əhatə edə bilər: "Xüsusilə Cənubi Qafqazı qlobal ticarət marşrutlarına daha sıx inteqrasiya edəcək "Trump Route for International Peace and Prosperity" (TRIPP) adlı yeni nəqliyyat dəhlizi konsepsiyası diqqət çəkir. Bakıdan Naxçıvana, oradan isə Türkiyə üzərindən Avropaya uzanacaq bu marşrut yalnız iqtisadi deyil, həm də siyasi baxımdan mühüm təsir gücünə malik ola bilər. ABŞ ilə imzalanacaq sənəd həmçinin Amerikanın enerji şirkətləri üçün Xəzər hövzəsində və Azərbaycanın bərpaolunan enerji sektorunda geniş imkanlar açacaq. Bu, Azərbaycanın enerji ixracatçısı kimi rolunu gücləndirməklə yanaşı, ölkənin beynəlxalq investisiya reytinqinə də müsbət təsir göstərə bilər".

Deputat bildirib ki, bu prosesdə Azərbaycanın rolu xüsusi vurğulanmalıdır. 2020-ci ilin Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıqlar fonunda Bakı bölgədə sülhün yalnız güc balansı və beynəlxalq hüququn prinsipləri əsasında təmin edilə biləcəyini sübut etdi. Azərbaycan tərəfi həm Moskva, həm Brüssel, həm də indi Vaşinqton formatlarında aparılan danışıqlarda öz mövqeyində ardıcıl və prinsipial davranaraq, sülh gündəliyini real məzmunla doldurmaq bacarığını nümayiş etdirdi. İllərlə beynəlxalq vasitəçilərin nəticəsiz qalan təşəbbüslərindən fərqli olaraq, bu dəfə Bakı həm sahədə yaratdığı təhlükəsizlik reallığı, həm də diplomatik çevikliyi ilə prosesin hərəkətverici qüvvəsinə çevrildi. İlham Əliyevin regional nəqliyyat-kommunikasiya xəritəsini yenidən dizayn edən təşəbbüsləri Azərbaycanın yalnız sülh axtaran tərəf deyil, həm də bölgənin gələcək inkişaf modelini formalaşdıran lider olduğunu göstərir.

E.Mirzəbəyli söyləyib ki, Vaşinqton görüşünün uğurla nəticələnməsi Cənubi Qafqaz üçün yeni siyasi səhifənin açılması deməkdir: "Bu, Ermənistan üçün də tarixi şansdır. ABŞ Prezidentinin təşəbbüsü ilə atılacaq bu addım həm Qərbin bölgədəki nüfuzunu möhkəmləndirəcək, həm də Azərbaycan-ABŞ strateji tərəfdaşlığını yeni mərhələyə daşıyacaq. Ən əsası isə bu proses sülhün yalnız diplomatik sənədlərdə deyil, xalqların yaddaşında və gündəlik həyatında reallığa çevrilməsi üçün tarixi imkan yaradır".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Konstitusiya və Suverenlik İli 2025

# Sözün azadlığını və məsuliyyətini qoruyan Əsas Qanun

**Mətbuat, söz və ifadə azadlığı demokratik cəmiyyətin əsas təməllərindən olduğuna görə onlarla bağlı hüquqi münasibətlərin Konstitusiya ilə tənzimlənməsi və qorunması zəruridir. Bu azadlıqlar sadəcə fərdi hüquqlar deyil, həm də ictimai maraqlara xidmət edən, idarəetmədə şəffaflıq yaradan və cəmiyyətin inkişafına yönələn əsas prinsiplərdir. Mətbuat, söz və ifadə azadlığının Konstitusiya ilə tənzimlənməsi onların dövlət tərəfindən tanınması və qorunmasına, demokratiyanın dayanıqlı inkişafına zəmin yaradır, eyni zamanda cəmiyyətin məlumatlı, iştirakçı və cavabdeh olmasını təşviq edir. Bütün bunlar isə sadəcə hüquqi məsələ deyil, dövlətin mahiyyəti və legitimliyi ilə bağlı əsas prinsiplərdəndir.**

### Mütərəqqi yanaşma

Ümummilli Lider Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi - referendum əsasında qəbul olunan və bu il qəbulundan 30 il ötən Azərbaycan Respublikası Konstitusiyasında da bu məsələlər ən mütərəqqi beynəlxalq təcrübələrə uyğun şəkildə təsbit olunmuşdur.




Əsas Qanunumuzda mətbuatla bağlı məsələlər birbaşa və ya dolayısı ilə bir sıra müddəalarda əksini tapmışdır. Bu müddəalar mətbuat azadlığının hüquqi əsaslarını, onun dövlət müdaxiləsindən kənar fəaliyyətini və senzurasızlığını təmin edir. Azərbaycan Respublikası Konstitusiyasının məlumat azadlığı ilə bağlı 50-ci maddəsində həm mətbuat, həm də ümumilikdə informasiya azadlığı ehtiva olunmuşdur. Maddədə göstərilir ki, hər kəsin qanuni yolla məlumat almaq, onu axtarmaq, əldə etmək və yaymaq hüququ vardır.

Bu müddəa jurnalistlərin, redaksiyaların, media qurumlarının hər hansı maneəsiz informasiya əldə etmək və yaymaq fəaliyyətini birbaşa təmin edir. Maddənin II hissəsində isə ölkəmizdə kütləvi informasiya vasitələrinin azad olduğu, senzuranın qadağan edildiyi öz əksini tapmışdır. Bu da Azərbaycan Respublikası Konstitusiyasında mətbuat azadlığı ilə bağlı əsas prinsiplərdəndir. Belə ki, dövlət orqanlarının mətbuatın məzmununa müdaxiləsinə, yayılacaq məlumatların əvvəlcədən yoxlanaraq onlara senzura tətbiq olunmasına qadağa qoyulur. Kütləvi informasiya vasitələrinin, o cümlədən qəzet və jurnalların, televiziya və radio qurumlarının, internet medianın və s. fəaliyyətində müstəqillik təmin edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsində isə fikir və söz azadlığı ilə bağlı müddəalar öz ifadəsini tapmışdır. Bu baxımdan 47-ci maddə də mətbuat azadlığının əsas təməllərindəndir. Çünki mətbuat fikir və söz azadlığının əsas ifadə vasitələrindəndir.

Mətbuat azadlığı hər nə qədər geniş sərhədlərə malik olsa belə bu sərhədlər heç bir halda hüdudsuz da deyildir. Dünyanın bütün demokratik ölkələrində mətbuatla bağlı sosial məsuliyyət normaları qorunur və bu sahədə azadlıqlardan sui-istifadə hallarının qarşısını almaqdan ötrü müvafiq normalar tətbiq edilir. Azərbaycan Respublikasının Konstitusiyasında da bu məsələlər dəqiq şəkildə öz ifadəsini tapmış, Əsas Qanunun 71-ci maddəsində hüquq və azadlıqların məhdudlaşdırılması ilə bağlı müəyyən müddəalar təsbit olunmuşdur.

Konstitusion normalara görə ölkəmizdə mətbuat, söz, ifadə azadlıqları ilə bağlı hüquqların məhdudlaşdırılmasına yalnız qanunla və demokratik cəmiyyətin maraqlarına uyğun müvafiq hallarda, yəni ölkənin milli təhlükəsizliyi, ictimai asayiş, əxlaqi-etik normalarının, başqalarının hüquq və azadlıqlarının qorunması və sairə bu kimi hallarda yol verilir. Azərbaycan Respublikasının Konstitusiyasında nəzərə alınmış bütün bu müddəalar beynəlxalq insan hüquqları normalarına tam uyğundur.

1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbulundan sonra 1998-ci ildə ölkəmizdə senzura tam ləğv edilmiş, 1999-cu ildə qəbul edilərək qüvvəyə minmiş "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə kütləvi informasiya vasitələrinin dövlət qeydiyyatı, fəaliyyəti daha da sadələşdirilmiş, Azərbaycanda yüzlərlə yeni media qurumu yaradılaraq uğurla fəaliyyətə başlamışdır. Bu gün də ölkəmizdə yüzlərlə media qurumu fəaliyyət göstərir, onlar cəmiyyət həyatının ən müxtəlif sferaları ilə bağlı informasiyalar əldə edir, yayır, insanların məlumatlandırılmasına xidmət edirlər. Azərbaycanda internet tam azaddır. Ölkə Prezidenti İlham Əliyev digər vətəndaş hüquq və azadlıqları kimi ölkəmizdə söz və ifadə azadlığının ən böyük qarantıdır.

Dövlət başçısı söz azadlığının təmin olunmasını prioritet məsələ hesab edir və bununla bağlı böyük siyasi iradə nümayiş etdirərək lazımi addımlar atır. "Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin. Azərbaycanda o cümlədən mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur" - Prezident İlham Əliyev bildirmişdir. Və bunu demokratiyanın fundamental şərti kimi dəyərləndirmişdir. Azərbaycan mediası da ölkəmizin ümumi inkişaf proseslərinin çox əhəmiyyətli hissəsi kimi üzərinə düşən vəzifələri şərəflə yerinə yetirir, günümüzün reallıqlarını sənədləşdirərək əbədi tarixə çevirir.

### Zamanın çağırışlarına uyğun təkmilləşdirmələr

Əsas Qanunumuzun dövrün çağırışlarına uyğun təkmilləşdirilməsi məqsədilə 2002, 2009, 2016-cı illərdə reallaşdırılan referendumlarda da söz və ifadə azadlığı, mətbuat azadlığı, informasiya hüquqları ilə birbaşa və ya dolayı şəkildə bağlı olan müəyyən dəyişikliklər həyata keçirilmişdir.

Belə ki, 2002-ci ildə keçirilmiş referendumda vətəndaşların məhkəməyə çıxış imkanları genişləndirilmiş, insan hüquqlarının qorunması baxımından məhkəmələrə müraciət prosedurları sadələşdirilmiş, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) institutu təsis edilmiş, bu qurumun fəaliyyət dairəsinə ifadə və söz azadlığı ilə bağlı şikayətlərə baxılması da daxil olmuş, bütün bunlar isə ifadə azadlığı ilə bağlı birbaşa dəyişikliklər sayılmasa da, hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsi ilə bu sahəyə müsbət təsirlər yaratmışdır.

2009-cu il referendumunda isə Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsində hər kəsin şəxsi həyatına müdaxilənin yolverilməzliyi müddəası genişləndirilmişdir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, şəxsin xəbəri olmadan və ya etirazına baxmadan izlənilməsi, video və foto çəkilişi, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyulması qadağan edilmişdir.

2016-cı ildə keçirilmiş referendumda da məlumat əldə etmək və ifadə azadlığı baxımından mühüm dəyişikliklər baş vermişdir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağan edilmişdir.

Bundan başqa, göstərilmişdir ki, məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz. Fərdi məlumatların dairəsinin, habelə onların emalı, toplanması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtlərinin də qanunla müəyyən edildiyi təsbit olunmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş müddəalara əsasən, 2005-ci ildə "İnformasiya əldə etmək haqqında" qanun da qəbul edilmişdir. Burada Əsas Qanunumuzun 50-ci maddəsi ilə müəyyən edilmiş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsasları göstərilmiş, həmçinin ictimai vəzifələrin yerinə yetirilməsinə vətəndaşlar tərəfindən nəzarət olunmasına şərait yaradılmışdır.

2021-ci ildə qəbul edilmiş "Media haqqında" qanun isə Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 13-cü bəndlərinə uyğun olaraq, media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən etmişdir. Qanunun məqsədi ölkəmizin informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılması, habelə jurnalist peşəsinin nüfuzunun yüksəldilməsinə şərait yaradılmasıdır.

Mətbuat, jurnalistika zamanın çağırışları ilə nəfəs alan ictimai təsisatdır. Azərbaycan dövlətinin bugünkü inkişafı, həm regionda, həm də qlobal məkanda oynadığı əhəmiyyətli rol, önümüzdəki böyük milli hədəflər mətbuatımız qarşısında da yeni vəzifələr qoyur. Prezident İlham Əliyev çıxışlarında bu xüsusda demişdir: "Bu gün Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlğın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanılması və təbliğində mühüm rol oynamalı, tədris və maarifləndirmə sahəsində fəaliyyətini gücləndirməlidir. Azərbaycan jurnalistikası peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etməli, söz və məlumat azadlığından sui-istifadənin qarşısı qətiyyətlə alınmalıdır".

Bütün bu qeydlər də göstərir ki, Azərbaycan Respublikası Konstitusiyasında mətbuatla bağlı məsələlər medianın azadlığı, senzuranın yolverilməzliyi, informasiyanın sərbəst axtarılması və yayımı prinsipləri ilə tənzimlənir və eyni zamanda başqalarının hüquq və mənafelərinin mövcud azadlıqlardan sui-istifadə hallarından qorunması üçün sosial məsuliyyət prinsipini də öndə tutur.

Azərbaycan Respublikası Konstitusiyası söz və mətbuat azadlığını hüquqi cəhətdən qoruyur, təmin edir, real həyatda bu azadlıqlardan maksimum və məsuliyyətli istifadə üçün dəqiq mexanizmlər formalaşdırır. Bu, ölkəmizdə demokratik inkişaf proseslərinin ardıcıllığı üçün əsas hərəkətverici qüvvələrdəndir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# ADA Universiteti "Azərbaycan" qəzetinin (1918-1920-ci illər) tam külliyyatından XIII cildi nəşr edib

**ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə "Azərbaycan" qəzetinin (1918-1920-ci illər) tam külliyyatının latın qrafikasında nəşri uğurla davam edir.**

AZƏRTAC xəbər verir ki, tam külliyyatın XIII cildi oxuculara təqdim edilib. Bu cild qəzetin 1919-cu ilin oktyabr ayı nömrələrini (287-310) əhatə edir.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin orqanı olan "Azərbaycan" qəzetində rast gəlinən xəbərlər o dövrün hadisələrinə dair ilkin mənbələrdir. Qəzetin topluya daxil edilmiş 1919-cu il 1 oktyabr tarixli 287-ci nömrəsində "Zəngibasar müsəlmanlarının halı"na dair yazıda oxuyuruq: "Zəngibasarda olan erməni komissarı və Uluxanlı mövqifindəki erməni komendantı Zəngibasar kəndlilərinin hər birinə qüvvələrindən artıq xərclər bağlayırlar. Bununla bərabər, həman qüvvədən artıq müəyyən xərci aldıqları vaxt eyni miqdarın ikiqat artığını tutub cəbrən [zorla] alırlar. Vermədikləri halda döyülüb həbs edilirlər.

Bundan əlavə, İrəvanda olduğu kimi Zəngibasar mahalında da müsəlman kəndlilərindən hankısının pulu olduğu anlaşılarsa, komissar yaxud komendant tərəfindən çağırılıb lazım miqdarda pul istənilir. Vermədiyi halda bəzi töhmətlərlə İrəvan qalasına göndərilib, səbəbsiz yerə aylarca həbsdə saxlanırlar. Zəngibasar müsəlman kəndlilərinin bir çoxları dəfələrlə bu kimi təcavüzlərə düçar olmuşlardır".

"Azərbaycan" qəzetinin səhifələrində qızların təhsil alması məsələsinə də yer ayrılırdı. Tam külliyyatın XIII cildinə daxil edilmiş qəzetin 1919-cu il 3 oktyabr tarixli 289-cu nömrəsində Qazax Darülmüəlliminin tələbəsi Feyzulla Məhəmmədzadənin "Müəllimə yoxluğuna çarə olmalı" məqaləsində yazılıb: "Əvət, biz gələcək analarımızın mədəni, elmli olmağı üçün ünas [qız] məktəbləri açmaq lazımdır. Həm şəhərlərdə və həm köylərdə. Fəqət həman məktəblərdə dərs verən Azərbaycan müəllimələri yox, yox!

Elmə həvəskar bacılarımız şəhərlərdə, köylərdə kəndi ana lisanlarında oxumağı artıq arzu edirlər. Hətta Cavad uyezdinin bəzi kənd əhlləri məktəblər müdirlərinə ərizə vermişlər ki, ünas məktəbi açılsın. O cümlədən Xilli, Şıxəlibəyli, Qalaqayın köyləri. Bu köylərdə maarif nazirləri [maarif müfəttişləri] məktəb açıb bacılarımızı elm tərəqqisinə aparmaqda idilər ki, şimdi bu vaxtadək heç bir əsər yoxdur. Buna da səbəb müəllimələrin yoxluğudur.

Bu barədə maarif nazirləri və millət xadimləri müəllimələr hazırlayıb, elmdən məhrum qalmış bacılarımızı, hansılar ki gələcəkdə bizlərə milli ana olacaqlar, onları elm və tərəqqi yoluna sövq etməli [ki], daha qaranlıq guşələrdə qalıb, oxumaqdan bibəhrə olmasınlar və qəlbləri elm nuru ilə həmişə parlaq olsun".

Topluya daxil edilən "Azərbaycan" qəzetinin nömrələrindən birində onun nəşrinin birinci ilinə həsr edilmiş məqalə də yer alıb. "Azərbaycan"ın birinci səneyi-dəvamiyyəsi" (1919-cu il, 9 oktyabr, N291) sərlövhəli məqalədə oxuyuruq: "Birillik "Azərbaycan" kolleksiyonu tədqiq edilər, nəşr edilən məqalə və felyetonlar bir gözdən keçirilərsə, görünər ki, milliyyət, siyasiyyat, ticarət və iqtisadiyyat və tariximiz haqqında olduqca [geniş] bir məlumat vardır. "Azərbaycan" mühərrirləri böyük bir xülus və safiyyətlə [səmimiyyət və saflıqla] əllərində tutduqları qələmlə ancaq bir hədəf və bir qayəni gözlərinin önündə bulundurmuşlardır ki, o da məmləkətin səlaməti, millətin hürriyyəti-siyasiyyəsi, fikri-istiqlaliyyətin [istiqlaliyyət] qüvvətlənməsidir. Bu üç şüar, bittəb [şübhəsiz], bu gün ümum əfradi-millət [millətin fərdləri] arasında söylənib təkrar edilməkdə və mətbuat isə bunu təqviyə eyləməkdədir [gücləndirməkdədir]".

"Azərbaycan" qəzetinin səhifələrində Cümhuriyyətin ayrı-ayrı bölgələri haqqında da yazılar dərc edilirdi. Bu baxımdan külliyyatın XIII cildinə daxil edilmiş qəzetin 1919-cu il 30 oktyabr tarixli 309-cu nömrəsində yer alan "Lənkərana dair" yazı diqqəti cəlb edir: "Azərbaycanın ən fəlakətzədə və zərərdidə bir cüzü [hissəsi] də, heç şübhəsiz ki, Lənkəran - o, minlərcə can bahasına ədadan istixlas [düşməndən xilas] edilmiş sevgili məmləkətdir.

Lənkəran ənud [inadcıl] düşmənin layənqəte [arasıkəsilməz] sövlət [şiddətli hücum] və zərbələri altında aylarca paytaxtımızdan ayrılmış olaraq, həyat və məmat ilə [ölüm-qalımla]




mübarizə eylərkən, bütün Azərbaycan türklüyü də milli və vətəni həyəcanlarla mütəhəssis [vətənsevərlik hissləriylə duyğulanmaqda] və mütəəssir olmaqda idi.

Lənkəran macəracu [avantürist] ruslar və bolşeviklərin idarəsində o dərəcədə düçari-zülüm və qəhr olmuşdu ki, oradan yüksələn hər fəryad və fəğan şimşək sürəti ilə qəlblərimizi yaralayır, ruhumuzu təzlim edir [ruhumuzu qaraldır], fikirlərimizi tədhiş eyləyirdi [ürküdür, qorxuya salırdı].

Lənkəran düşmən ayaqları altında əzildi, üzüldü.

Fəqət bu təzəllüm [çəkilən zülümlər], bu cəfa lənkəranlı vətəndaş və millətdaşlarımızda vətəni, milli hiss və fikirlərin doğmasına, artmasına amil oldu. Lənkəran maddətən düçari-qəhr oldu isə, mənən də məzhəri-fəlah və nicat oldu [xoşbəxtliyə və qurtuluşa nail oldu].

Üç-dörd ay əvvəl sevgili məmləkətimiz qəhrəman və şəci [şücaətli] əsgərlərimizin hücumi-qəhharanəsi [düşməni qəhr edən hücumu] ilə Ana Vətənə, Azərbaycana feilən iltihaq etdi [qovuşdu, birləşdi]. Hər zaman hər vəsilə [vasitə] ilə təzəllüm [şikayət] etdiyimiz, daima bir mövcudiyyət məsələsi kimi pişgahımızda [qarşımızda] bulundurduğumuz Lənkəran müqəddəratı artıq həll edilmişdi. O gündən bu günə qədər müstərih [rahat] nəfəs almağa başladıq. Vətəni və milli bir səadət hiss etdik".

Beləliklə, kitabı vərəqlədikcə o dövrün hadisələri göz önündə canlanır. ADA Universitetinin rektoru Hafiz Paşayev kitaba "Ön söz"də yazıb: "Azərbaycan" qəzetindəki materiallar Azərbaycan Cümhuriyyətinin bilavasitə tarixini əks etdirir. Qəzetin səhifələrində Azərbaycan Hökumətinin qərarları, Parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapıb. Günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə dair materiallar oxucularda böyük maraq doğuracaqdır. Eləcə də Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə münasibətləri, dövrün ab-havası müfəssəl şəkildə qəzetin səhifələrində əks olunub. Ümumiyyətlə, bu qəzetin transliterasiyası Azərbaycan Cümhuriyyəti tarixşünaslığında yeni bir səhifə açacaq və gələcək tədqiqatlar üçün mühüm stimul olacaqdır.

İlk dörd nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilən "Azərbaycan" qəzetinin 15 sentyabr 1918 - 28 aprel 1920-ci il tarixləri arasında 443 nömrəsi çapdan çıxmışdır. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olmuşdur. Qəzet əksəriyyətlə 4 səhifə həcmində çıxsa da, bəzi nömrələrdə səhifələrin sayı fərqlilik göstərir. Hər səhifədəki sütunların sayı və səhifələrin ölçüsü, qəzetin çap olunduğu 19 ay yarımlıq müddət ərzində bir neçə dəfə dəyişmişdir".

Qəzetin mətnlərini filologiya üzrə fəlsəfə doktoru Mehdi Gəncəli, filoloq, tərcüməçi Azad Ağaoğlu transliterasiya edib. Nəşrin elmi redaktoru akademik Teymur Kərimlidir.

"Azərbaycan" qəzetinin 1918-1920-ci illərdə nəşr olunmuş 443 nömrəsinin transliterasiya ilə 20 cilddə çapı nəzərdə tutulub.

Kitabı elektron formatda da əldə etmək mümkündür.

**Jurnalistin səfər qeydləri**





# Türkiyədə bizi qəhrəman kimi qarşıladılar

## Qazi jurnalistlərimizin İstanbul səfəri maraqlı görüşlər, xoş xatirələrlə yadda qaldı

**Vətənpərvərlik - vətənini və xalqını sevənlərin hiss və duyğularını özündə təcəssüm etdirən böyük dəyərdir...**

**Vətən torpağına sevgi əkən, ocağının qorunu gözü üstündə saxlayan hər kəs şərəflənər...**

**Ata-anaya olan sevgi Vətənə olan sevgini formalaşdırır deyirlər.**

**Xalqımızın bariz qəhrəmanlıq tarixi, comərd nəsilləri var. Zaman-zaman Vətən təhlükədə olanda qəhrəman oğullar silaha sarılıb el-obanı, müqəddəs torpaqlarımızı qorumaq uğrunda canlarını belə fəda etmişlər. Söz Vətən olanda peşəsindən, sənətindən asılı olmayaraq hər zaman vətənpərvərlər önə çıxmışlar. Necə ki, Birinci və İkinci Qarabağ müharibələrində olduğu kimi...**

**Şanlı Zəfərimizlə bitən İkinci Qarabağ savaşı başlayarkən "Vətən, canım sənə fəda!" deyənlərin sırasında Azərbaycan mətbuatının qəhrəman jurnalistlərinin də yer alması heç də təəccüblü hal deyildi. İllərlə qələmi ilə Azərbaycan uğrunda savaşan jurnalistlərimiz silaha sarılaraq müharibənin aktiv iştirakçısına çevrildilər. Onlar həm peşə borclarını, həm də vətəndaşlıq borclarını yerinə yetirdilər. Qələmini süngüyə çevirən qəhrəmanlar qazandığımız şanlı Zəfərimizdə həm tarix yazdılar, həm də tarixə yazıldılar.**

**Şərəf salnaməmizin bir parçasına çevrilən qazi jurnalistlərimizin qəhrəmanlığı bu gün də xüsusi qeyd edilir və hətta dost, qardaş ölkələrdə heyranlıqla qarşılanır. Buna ötən həftə bir qrup qazi jurnalistimizin qardaş Türkiyə Cümhuriyyətinə təşkil olunan səfəri çərçivəsində keçirilən çoxsaylı görüşlərdə bir daha şahidlik etdik.**



### Möhtəşəm Çamlıca məscidi, əsrarəngiz boğaz turu

Öncə onu qeyd edək ki, qazi jurnalistlərin Türkiyəyə səfəri MediaTürk TV-nin təşəbbüsü, TİKA Azərbaycanın koordinatorluğu, Türkiyə Media İş Sendikası və "Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları" İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə həyata keçirildi.

İstanbulda hava limanına endikdə bizi Türkiyə Media İş Sendikasının xüsusi ayrılmış mikroavtobusu gözləyirdi. Hava limanından birbaşa Media İş Sendikasının hotelinə yollandıq. Bizi yüksək qonaqpərvərliklə, alicənablıqla qarşılayan qurumun genel başkan yardımcıları Cemal Sonsay və Dilek Atçekenlə tanışlıq bizə xoş təsir bağışladı, özümüzü evimizdəki kimi hiss etdik. Bir qədər dincəldikdən sonra İstanbul şəhərinin görməli, gəzməli yerlərinə baş vurduq. İlk getdiyimiz ünvan möhtəşəm Çamlıca məscidi oldu. Üsküdarın Çamlıca qəsəbəsindəki məscidin tikintisinə 29 mart 2013-cü ildə başlanılıb və 3 may 2019-cu ildə açılışı olub. 63 min nəfərin eyni anda ibadət edə biləcəyi məscidin 6 minarəsi var. Sahəsi 57 min 500 kvadratmetrdir. Məscid kompleksinə muzey, rəsm qalereyası, kitabxana, 1000 nəfərlik konfrans zalı, 8 sənət emalatxanası və 3 min 500 maşınlıq dayanacaq daxildir.

Məscidin minarələri o qədər hündürdür ki, İstanbulun istənilən yerindən onu görmək mümkündür. Ziyarətdən sonra gəmi ilə boğaz turuna çıxdıq və İstanbulun hər iki hissəsinin heyrətamiz mənzərəsini seyr etdik. Gəmi boğazla irəliləyib tarixi-memarlıq abidələrinin önündən keçdikcə qonaqlara mikrofon vasitəsilə həmin obyekt haqqında ətraflı məlumatlar verilirdi.

İstanbula səfərimizin ilk günündə qardaş ölkədə belə maraqlı və yaddaqalan gəzinti və eyni zamanda yerli əhalinin isti münasibəti, xüsusi diqqəti qazi jurnalistlərimizdə yüksək əhvali-ruhiyyə yaratdı.

Səfərimizin ilk günü xatirələrimizdə silinməz izlər buraxdı.




### Azərbaycan Mədəniyyət Evində və "Anadolu" Agentliyində maraqlı anlar

Səfərin ikinci günündə qazi jurnalistlər qardaş ölkədə bir neçə görüş keçirdilər. İlk baş vurduğumuz ünvan İstanbul şəhərində yerləşən Azərbaycan Mədəniyyət Evi oldu. Qurumun rəhbəri Hikmət Elp ziyarətin əhəmiyyətini vurğulayıb, azərbaycanlı jurnalistlərin səfərinin iki ölkə arasındakı qardaş münasibətlərinə növbəti töhfə olduğunu bildirdi.

"Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları" İctimai Birliyinin rəhbəri Bəhruz Məmmədzadə diqqətə çatdırdı ki, 2020-ci ildə Azərbaycan ilə Ermənistan arasında baş vermiş 44 günlük İkinci Qarabağ müharibəsi zamanı informasiya cəbhəsində mübarizə aparan və xalqı düzgün, operativ məlumatlarla təmin edən media nümayəndələridir. Bu insanlar həm jurnalist, həm operator, həm də sosial media fəalları kimi müxtəlif platformalarda fəaliyyət göstərərək qələbədə mühüm rol oynayıblar. Jurnalistlər müharibə zonasından reportajlar hazırlayaraq həm yerli, həm də beynəlxalq ictimaiyyətə real vəziyyəti çatdırıblar. Jurnalistlərimiz qələmlərini süngüyə dəyişərək Zəfər tariximizin bir parçasına çevriliblər. Cəbhənin müxtəlif istiqamətlərində savaş yolu keçən jurnalistlərimiz Prezident İlham Əliyev tərəfindən medallarla təltif ediliblər.

Bu fikirləri eşidən Hikmət Elp sevinc göz yaşlarını saxlaya bilmədi, hıçqırtılı səslə yalnız "sizlərə ömürboyu borcluyuq, var olun!" dedi.

Çay süfrəsi arxasında əyləşib, Qarabağ müharibəsindən, türk dünyasının birliyindən də geniş söhbət açdıq.

Görüşün sonunda qarşılıqlı olaraq xatirə hədiyyələri, kitablar təqdim olundu.

Həmin gün qazi jurnalistlərin növbəti dayanacağı Türkiyənin nüfuzlu media qurumlarından biri - "Anadolu" Agentliyi oldu.



Bizi xoş sözlərlə qarşılayan agentliyin Strateji kommunikasiyalar və beynəlxalq əlaqələr şöbəsinin baş mütəxəssisi Eren Erciyas bu media qurumunun tarixi, bugünkü fəaliyyəti, gələcək prioritetləri haqda geniş məlumat verdi. Onun səsləndirdiyi rəqəmlər, o cümlədən müasir texnologiyalardan istifadə imkanları barədə dedikləri böyük marağa səbəb oldu.

Azərbaycan media orqanları ilə yeni istiqamətlərdə əməkdaşlıq imkanlarının da müzakirə olunduğu görüşdə qazi jurnalistləri maraqlandıran suallar cavablandırıldı.

Görüşün sonunda tərəflər bir-birinə hədiyyələr təqdim etdi və xatirə fotosu çəkdirildi.

### "CNN Türk"də "Can Azərbaycan!" sədası, Fulya Öztürklə ikinci görüş

Günün son görüşü isə tanınmış teleşirkətlərdən biri olan "CNN Türk"də baş tutdu.

Telekanalın ofisinə daxil olub görüş yeri üçün ayrılmış məkana doğru irəlilədikdə qəfildən yüksək tonla bir səs eşitdik - "Can Azərbaycan!"

Gəlişimizi belə qarşıladılar...

Ardınca isə qurumun Xəbərlər Departamentinin müdiri İdris Arıkan və Vətən müharibəsi dövründə hadisələrin mərkəzindən hazırladığı reportajlarla Azərbaycanda böyük populyarlıq qazanan, xalqımızın sevimlisinə çevrilən telejurnalist Fulya Öztürk bizi böyük coşqu ilə qarşıladılar.

Bu görüş Fulya ilə mənim ikinci görüşüm idi. İlk görüşümüz Vətən müharibəsi zamanı Gəncədə baş tutmuşdu. Ermənistandan Gəncəyə kassetli bombaların atıldığı zaman yaşanan dəhşətli anları dünyaya çatdıran Fulya Öztürklə Gəncə "ASAN xidmət" mərkəzində görüşmüşdük. Mən də Bakıdan Gəncəyə reportaj hazırlamaq üçün ezam olunmuşdum. Fulyanı xidmət mərkəzində ən çox duyğulandıran "Əsgərə məktub" layihəsi olmuşdu. Bu layihənin masası demək olar ki, boş qalmırdı. Mərkəzə daxil olan hər kəs cəhbədə savaşan igid Azərbaycan əsgərinə sevgi dolu məktub yazırdı. Həmin məktublarda qeyd edilən fikirlər əsgərlərimizin döyüş ruhunun daha da artması üçün yüksək motivasiya idi. Fulya reportajını məhz bu masanın qarşısından reallaşdırırdı.

"CNN Türk"dəki ikinci görüşümüz zamanı ona xatırlatmanı edəndə də elə ilk o layihənin adını çəkdi: "Canım qardaşım, xatırladım səni. Heç unuda bilərəmmi?! Möhtəşəm "Əsgərə məktub" layihəsi çox gözəl idi. Savaşçı qardaşlarımıza böyük ruh yüksəkliyi verən məktublar... O anlar unudulmazdır".

Səmimi söhbət edən İdris Arıkan isə öz növbəsində iki olkə media orqanlarının əməkdaşlığı, Türkiyə-Azərbaycan qardaşlığı fonunda media nümayəndələrinin üzərinə düşən vəzifələrdən söz açdı.

Sonra üzünü bizə tutub fəaliyyətimizlə maraqlandı. Bəlli oldu ki, ortada bir qədər yanlış anlaşma var. Elə bu səbəbdən də səfərin təşkilatçılarından olan Parlament Jurnalistləri Birliyinin rəhbəri, "Modern.az" saytının baş redaktoru Elşad Eyvazlı türkiyəli həmkarlarımızın diqqətinə çatdırdı ki, burada olanlar Azərbaycanın haqq savaşında arxa cəbhədə reportajlar hazırlayan media nümayəndələri deyil, söz Vətən olanda qələmini yerə qoyub, silaha sarılaraq döyüşə gedən könüllü müharibə iştirakçılarıdır. Bu gün isə onlar Türkiyəyə qazi jurnalistlər kimi səfər ediblər.

Bu fikirləri eşidən İdris Arıkanla Fulya Öztürk təsirləndilər. Görüş masasında ab-hava dəyişdi. Bəlli oldu ki, qardaş ölkədə belə bir təcrübə yaşanmadığı üçün bu, onlara qeyri-adi hadisə kimi təsir etdi.

İdris Arıkan təəccüblü şəkildə danışmağa başladı: "Bu, necə olur axı... Anladığım qədər deyə bilərəm ki, bizdə belə təcrübə yoxdur. Demək, İkinci Qarabağ savaşı zamanı, yəni söz Vətən olanda doğma torpağını, yurdunu, xalqını sevən hər kəs silaha sarılar. Hətta media nümayəndəsi də... Sizlər rahat işinizi, isti otağınızı, geniş imkanlarınızı, evdə ailənizi, uşaqlarınızı qoyub Vətən üçün ölümə getdiniz və qazi oldunuz. Bu, nə böyük şərəf, nə böyük iftixardır. Sizlərlə qürur duydum, əziz qardaşlarım".

Sonra hər birimiz keçdiyimiz döyüş yolumuzdan, yaddaqalan hadisələrdən bəhs etdik, savaş xatirələrimizi bölüşdük.

Bizi dinləyən Fulya Öztürkün duyğusallığı ilə hədsiz sevinc hissi bir-birinə qarışmışdı. Elə söhbətə başlayarkən səsindəki titrəyişdən də bunu hiss etmək mümkün idi: "Bax, bu, çox gözəl bilgi oldu. Mənim döyüşçü məsləkdaşlarım, siz canınızı Vətən üçün qurban deyərək savaşamı qatıldınız?! Bu, necə vətənpərvərlikdir, bu, necə ali məqamdır. Siz hər mənada ən yüksək, ən dəyərli sözlərə layiqsiniz. Sizlərlə qürur duyuram!"

Çay süfrəsi arxasında keçən səmimi və yaddaqalan görüşün sonunda Azərbaycan nümayəndə heyəti telekanala və Fulya Öztürkə simvolik hədiyyələrini təqdim etdi, xatirə şəkli çəkdirildi.

*(Ardı var)*

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

*Bakı-İstanbul-Bakı*

## Neftçalada Vətən müharibəsi şəhidi baş leytenant Xalid Orucovun doğum günü qeyd olunub



**Neftçalanın Aşağı Surra kəndində Vətən müharibəsi şəhidi baş leytenant Xalid Orucovun doğum günü qeyd olunub.**

Tədbirdə rayon rəhbərliyi, YAP rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların nümayəndələri, şəhid ailələri, müharibə iştirakçıları, rayon ağsaqqalları, din xadimləri iştirak ediblər. Öncə şəhid Xalid Orucovun məzarı ziyarət olunub, məzarı önünə gül dəstələri düzülüb, ruhuna dualar oxunub.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov tədbirdə çıxış edərək bildirib ki, Vətən müharibəsində qazanılan qələbə xalqımızın həmrəyliyi, ordumuzun gücü və vətənpərvər oğullarımızın fədakarlığı sayəsində mümkün olub: "Bu Zəfərdə Xalid Orucov kimi igid zabitlərimizin rolu əvəzsizdir. Xalid öz şücaəti, əqidəsi və vətən sevgisi ilə bir gəncin nə qədər böyük tarix yaza biləcəyini sübut etdi". Qeyd olunub ki, Azərbaycan dövləti hər zaman şəhidlərin ruhuna və onların ailələrinə yüksək ehtiramla yanaşır: "Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş torpaqlarda bu gün genişmiqyaslı quruculuq işləri aparılır. Bu işlərin əsasında şəhidlərimizin canı və qanı bahasına əldə olunmuş qələbə dayanır. Xalqımız şəhidlərimizin xatirəsini daim uca tutur. Onların qəhrəmanlıq nümunəsi isə gənc nəsillər üçün əsl vətənpərvərlik örnəyidir".

Tədbirdə şəhidin atası Saleh Orucov, bacısı Sevinc Orucova, Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun anası Filarə İsmayılova, şəhid Şahlar Məmmədovun anası Əzizə Məmmədova və digərləri çıxış edərək şanlı qələbəmizdən, dövlət, xalq, ordu birliyindən söz açaraq şəhid Xalid Orucovun Vətən uğrunda göstərdiyi qəhrəmanlıqdan danışıb, şəhid ailələrinə göstərilən diqqət və qayğıya, şəhidlərin xatirəsinin ehtiramla yad edilməsinə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Tədbirdə məktəblilər tərəfindən hazırlanan ədəbi-bədii kompozisiyalar dinlənilib, Vətəni, vətənpərvərliyi vəsf edən və şəhidə həsr olunan şeir və musiqilər səsləndirilib, şəhidin doğulub boya-başa çatdığı evin qarşısındakı xatirə bulağına gül dəstələri düzülüb.

Vətən müharibəsi şəhidi baş leytenant Xalid Saleh oğlu Orucov 44 günlük Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda göstərdiyi qəhrəmanlığa görə Prezidentin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları və "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordeni ilə təltif edilib.

***Seyran CAVADOV, "Azərbaycan"***

## Xankəndidə diaspor gənclərinin iştirakı ilə kibertəhlükəsizlik mövzusunda panel keçirilib



**Xankəndidə keçirilən Diaspor Gənclərinin VI Yay Düşərgəsində "Qlobal miqyaslı virtual icma və şəbəkələşmə platforması" mövzusunda panel təşkil olunub.**

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) icraçı direktoru Rauf Cabarovun moderatorluğu ilə keçirilən panelin qonaqları assosiasiyanın şöbə müdiri Əli Məmmədzadə, AKTA-nın İdarə Heyətinin sədri Pənah Musayev, "Crowdstrike" regional sistem mühəndisi Orxan Həbibzadə və "AREA Academy"nin təsisçisi Rəhman Rəsulzadə olub.

Paneldə kibertəhlükəsizlik sahəsində motivasiyanın əhəmiyyəti və gənclərin bu sahədə inkişafına dəstək imkanlarından danışılıb, virtual icma platformaları yaratmağın yeni meyarları barədə intellektual müzakirələr aparılıb. Müasir dövrün tələblərinə uyğun kibersimulyasiya texnologiyalarının rolu qeyd edilib. Dron və robot texnologiyaları sahəsindəki yeniliklər, bu texnologiyaların gələcəyin əsas istiqamətlərindən biri olduğu diqqətə çatdırılıb. Belə təşəbbüslərin diaspor gənclərinin texnologiya, kibertəhlükəsizlik və innovasiya sahələrində maariflənməsi, qlobal şəbəkələrə inteqrasiyası, eləcə də milli maraqlar ətrafında birləşməsi üçün mühüm platforma rolunu oynadığı vurğulanıb. Müzakirələr zamanı həmçinin düşərgə iştirakçılarının süni intellekt, kibertəhlükəsizlik, eləcə də rəqəmsal texnologiyalarla bağlı sualları cavablandırılıb.

Qeyd edək ki, avqustun 9-dək davam edəcək Diaspor Gənclərinin VI Yay Düşərgəsi Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə Xankəndidə keçirilir. Düşərgədə dünyanın 61 ölkəsindən 128 gənc iştirak edir. Bundan əvvəlki düşərgələr Şəki, Şamaxı, Şuşa, Naxçıvan və Laçın şəhərlərində baş tutub, düşərgələrə hər il 60-dan çox ölkədən ümumilikdə 700-dən çox gənc qatılır.

# Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində doğmaları itkin düşmüş, yaralanmış, mina qurbanı olmuş, əsirlikdə işgəncələrə məruz qalmış şəxslər məhkəmədə ifadə veriblər



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 8-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs Lənkəran Cəfərli 2020-ci ildə 44 günlük Vətən müharibəsində Ağdam rayonunun Çəmənli kəndində mülki əhalinin təxliyəsi ilə məşğul olarkən Ermənistan silahlı qüvvələrinin atdığı mərminin partlaması nəticəsində xəsarət aldığını bildirib. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında həmin ərazidə Azərbaycan Ordusunun atəş nöqtələrinin olmadığını deyib.

Şəmsi Kazımlı ifadəsində Vətən müharibəsi zamanı oktyabrın 19-da Hadrutda iki güllə yarası aldığını bildirib. Zərərçəkmiş şəxs 2021-ci il mayın 12-də Azərbaycan-Ermənistan şərti sərhədində, Laçın rayonunda, Gorus-Sisyan istiqamətində ona küt alətlə xəsarət yetirildiyini deyib. Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş şəxs hadisə zamanı ərazidə Ermənistan silahlı qüvvələrinin və silahlı mülki şəxslərin sayının təxminən 400-500 nəfər olduğunu söyləyib. "Hadisə zamanı onlar bizi əhatəyə almışdılar. Orada güllə atılmayıb, söhbət aparılırdı. Qəfildən arxadan küt alətlə vurdular. Hadisə zamanı mənimlə birlikdə altı nəfər xəsarət aldı", - deyə o bildirib.

Azad Axundov da özündən əvvəl ifadə vermiş Ş.Kazımlının dediklərinə oxşar ifadə verib. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş şəxs 2021-ci il mayın 12-də Azərbaycan-Ermənistan şərti sərhədində silahın qundağı ilə vurulması nəticəsində xəsarət aldığını söyləyib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran Ranil Abdullayev ifadəsində Vətən müharibəsi zamanı, oktyabrın 21-də Suqovuşanda minaatan mərmisinin partlaması nəticəsində yaralandığını bildirib.

Zərərçəkmiş şəxs Elvin Kərimovun hüquqi varisi - Niyaz Kərimov ifadəsində qardaşının Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində şəhid olduğunu deyib.

Zərərçəkmiş şəxs İdris Mirzəyev 1994-cü ilin aprel ayında Tərtər rayonunda Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib. O, dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında bildirib ki, əsirlik zamanı Şuşa həbsxanasında, Ağdərədə, Xankəndidə saxlanılıb. Azərbaycanın həmin vaxt Ermənistan silahlı qüvvələrinin işğalı altında olmuş Ağbulaq kəndində (Xocavənd rayonu - red.) müxtəlif tikinti işlərinə məcburi şəkildə cəlb olunub. Əsirlik zamanı döyülüb, işgəncələrə məruz qalıb, o cümlədən başında butulka sındırılıb. Aldığı xəsarətlər nəticəsində onurğa sütunu zədələnib, bu səbəbdən axsayır.

Həbib Əliyev 1992-ci ildə Laçında həqiqi hərbi xidmətdə olarkən, döyüşlər zamanı yaralanması nəticəsində əsir götürüldüyünü söyləyib. Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş şəxs bildirib ki, yaralı vəziyyətdə döyülüb, işgəncələrə məruz qalıb. Əsir əsgər yoldaşı gözləri qarşısında yandırılıb. Həbib Əliyev əsirliyinin 1 il 8 ayını zirzəmidə saxlanılıb. 1995-ci il mayın 8-də əsirlikdən azad olunub.

Mahir Əbilov 2021-ci ilin noyabr ayında Laçın rayonunun Güləbird kəndində "Azərişıq" ASC-nin əməkdaşı qismində çalışarkən mina partlayışı nəticəsində xəsarət aldığını bildirib.

Diləfruz Ələkbərova ifadəsində 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin Ağdam rayonunun İsmayılbəyli kəndini işğal etməsi nəticəsində ailə üzvləri ilə birlikdə məcburi köçkün düşdüyünü bildirib. Onların bütün mülkləri həmin vaxt işğal edilmiş ərazilərdə qalıb.

Tovuz Cəlilova ifadəsində həyat yoldaşı Bədirxan Cəlilovun 1994-cü il aprelin 17-də Ağdam rayonunun Güllücə kəndində döyüşlər zamanı itkin düşdüyünü bildirib.

Gülizar Salahova ifadəsində övladı Salahov Valeh Vaqif oğlunun 1994-cü il yanvarın 10-da Füzuli rayonunun Əbdürrəhmanlı kəndində döyüşlər zamanı itkin düşdüyünü söyləyib.

Rasim Bağırov ailə üzvləri ilə birlikdə Xankəndidən məcburi köçkün düşdüyünü deyib.

Ofeliya Almuradova ifadəsində Ermənistan silahlı qüvvələrinin Zəngilan rayonunu işğal etməsi nəticəsində 6 nəfərdən ibarət ailə üzvləri ilə birlikdə məcburi köçkün düşdüyünü bildirib. Qardaşı yaralanıb, əmisi oğlu itkin düşüb.

Zərərçəkmiş şəxs Cəfərov Emin Xeyrulla oğlunun hüquqi varisi Zümrüd Əbdülrəhimova ifadəsində qardaşının 1993-cü il dekabrın 26-da Füzuli rayonunda gedən döyüşlərdə şəhid olduğunu söyləyib.

Mahir Ağayev ifadəsində 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin açdığı artilleriya atəşi nəticəsində Füzuli rayonunda yaşadığı ikimərtəbəli evin dağıldığını, bir müddət sonra isə işğal səbəbindən məcburi köçkün düşdüyünü bildirib.

Gəncəli Kərimov 1992-ci ilin may ayında Laçın rayonunun Xanalılar kəndindən məcburi köçkün düşdüyünü bildirib. O deyib ki, Ermənistan silahlı qüvvələrinin hərbçiləri kənddə evləri talan edərək yandırıblar.

Sevinc Əsgərova 1993-cü ildə Zəngilan rayonunun Mincivan kəndindən məcburi köçkün düşdüklərini bildirib. O deyib ki, həmin vaxt Araz çayı vasitəsilə İrana keçiblər.

Tahir Nəcməddinov 2016-cı ildə Aprel döyüşləri zamanı, aprelin 3-də Ermənistan silahlı qüvvələrinin atdığı minaatan mərmisinin partlaması nəticəsində xəsarətlər aldığını bildirib.

Həbib İmanlı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə, Xocalı soyqırımı zamanı atasının və babasının həlak olduğunu bildirib.

Sevindik Əliyev ifadəsində deyib ki, yaşadığı Füzuli rayonunun Aybasanlı kəndinin 1993-cü il mayın 29-da Ermənistan silahlı qüvvələri tərəfindən top atəşinə tutulması nəticəsində anası Sitarə Əliyeva həlak olub. Bir müddət sonra isə məcburi köçkün düşüb.

Zərərçəkmiş şəxslər - Firudin Yaqubov, Rasim Şükürov, Mübariz Zülfüqarov, Eldar Əsgərov, Azər Sadıqov, Əhməd Əhmədov, İradə Məmmədova, Rövşən Niftalızadə, Qəzənfər Abbaszadə və Şahsuvar Abbasov ifadələrində Ermənistan silahlı qüvvələrinin müxtəlif tarixlərdə təxribatları, hücumları nəticəsində zərər çəkdiklərini bildiriblər.

Zərərçəkmişlər həmçinin təqsirləndirilən şəxslərin, o cümlədən Levon Mnatsakanyanın, David Manukyanın, David Babayanın, Davit İşxanyanın, təqsirləndirilənlərin müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi avqustun 11-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| “Azərpoçt” MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| “Azərmətbuatyayımı” ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| “Qaya” firması | (012) 566-77-80, (050) 214-40-53 |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| “Səma-M” MMC | (012) 594-09-59 |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| “City press” MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 164 (9909) 8 avqust 2025-ci il CÜMƏ
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-yə işgüzar səfərə gedib
Yeni strateji tərəfdaşlıq modeli
Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff ilə görüşü olub
Rusiya mediası tarixi faktları təhrif edir
Tramp və Putin görüşməyə hazırdırlar
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Elektrik enerjisinə tələbat tarixi sərhədi aşdı

## Ölkə 5 min MVt həddinə yaxınlaşır

**"AzərEnerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, 6 avqust saat 15:00-da ölkə üzrə elektrik enerjisinə tələbat rekord həddə çataraq saatda 4871 meqavat olub. Eyni zamanda sutkalıq enerji istehlakı da 100 milyon kilovat-saata yüksəlib.**



Bu sürətli artımın arxasında yalnız isti, bürkü və soyuducu sistemlərinin, əyləncə mərkəzlərinin çox işləməsi dayanmır. Əsas səbəb - son illərdə ölkə iqtisadiyyatının, sənaye müəssisələrinin, çoxmənzilli binaların və ümumilikdə bütün sahələrin davamlı və dinamik inkişafıdır.

Müqayisə üçün qeyd edək ki, 2018-ci ilin yayında temperatur 40-42 dərəcə olarkən ölkə üzrə pik tələbat 3625 meqavat olmuşdu. Son 7 ildə isə ölkə üzrə pik tələbat 1200 meqavatdan çox artıb. Buna adekvat olaraq ölkə başçısının tapşırığına uyğun olaraq "AzərEnerji" tərəfindən əlavə generasiya mənbələri, yarımstansiyalar yaradılıb, yeni SCADA, rele mühafizəsi, əks-qəza avtomatikası, tezliyin tənzimlənməsi, reaktiv gücün konpensasiyası üzrə yenilənmiş müasir sistemlər tətbiq edilib. Hazırda "AzərEnerji" ASC nəinki ölkə üzrə tələbata uyğun enerji istehsal etməyə, ölkənin ehtiyacından daha çox enerji istehsal etmək gücünə malikdir.

*"Azərbaycan"*

# İspaniyadakı Katolik kilsəsi müsəlmanların bayramlarına qoyulan qadağaya qarşı çıxıb

**Ölkədəki Katolik kilsəsinin ali nümayəndəlik orqanı olan İspaniya Yepiskoplar Konfransı (CEE) Mursiya əyalətinin Xumilya bələdiyyəsində müsəlmanların dini bayramlarının ictimai yerlərdə qeyd edilməsinə qoyulan qadağanı pisləyib.**

CEE-nin bəyanatında vurğulanır ki, belə bir qadağa İspaniya Konstitusiyası ilə təmin edilən əsas insan hüquqlarından biri olan din və ibadət azadlığını pozur. Sənəddə həmçinin qeyd edilir ki, bu cür məhdudiyyətlər, Xumilya hadisəsində olduğu kimi, "demokratik cəmiyyətdə yolverilməz olan ayrı-seçkilik formasını təşkil edir".

İspaniya Konstitusiyasının 16.1-ci maddəsində yazılıb: "Şəxslərin və icmaların fikir, din və ibadət azadlığı qanunla qorunan ictimai asayişin təmin edilməsi üçün zəruri olanlardan başqa məhdudiyyətlər qoyulmadan təmin edilir". Yepiskoplar vurğulayıblar ki, hakimiyyət yalnız ictimai asayiş üçün real təhlükə olduqda müdaxilə edə bilər.

Xatırladaq ki, bu günlər təxminən 1,5 mini müsəlman olmaqla 27 minə yaxın insanın yaşadığı Xumilyada ifrat sağçı Vox Partiyasının təşəbbüsü və bələdiyyə şurasında hakim sağ mərkəzçi Xalq Partiyasının dəstəyi ilə ictimai yerlərdə müsəlmanların dini bayramlarının qeyd olunmasının qadağan edilməsi barədə qərar qəbul edilib. İspaniyada ilk belə hal olan qərar qəzəb dalğasına səbəb olub. Sol partiyalar ifrat sağın bu islamofobik təşəbbüsünü kəskin şəkildə pisləyiblər.



# ABŞ-də helikopter elektrik xətti ilə toqquşub

**ABŞ-nin İllinoys ştatında helikopter elektrik xətti ilə toqquşub, Missisipi çayında barjaya çırpılıb və alovlanıb, iki nəfər həlak olub.**



Hadisə zamanı barjada heç kim olmayıb. Rəsmilər qeyd ediblər ki, qəzadan sonra əraziyə yanğınsöndürənlər və tibb briqadaları göndərilib. Hadisə ilə əlaqədar Missisipi çayı üzərində kommersiya daşımaları müvəqqəti olaraq dayandırılıb.

ABŞ Federal Aviasiya Administrasiyası (FAA) və Milli Nəqliyyat Təhlükəsizliyi Şurası (NTSB) qəzanın səbəblərini araşdırır.

# Almatıda Abay Günü ilə bağlı 120-dən çox tədbir keçiriləcək



Almatıda qazax şairi, yazıçısı, ictimai xadim, müasir qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayevin 180 illik yubileyi ilə bağlı proqram başlayıb.

Şəhər administrasiyasından verilən məlumata görə, avqust ayında 120-dən çox tədbir keçiriləcək. Bunlar tamaşalar, şeir gecələri, sərgilər, konsertlər, gənclərlə görüşlər və xeyriyyə tədbirləridir.

Əsas tədbir avqustun 10-da - Abayın doğum günündə keçiriləcək. Səhər saatlarında Respublika Sarayının yanındakı abidə önünə gül dəstələri düzüləcək, sonra isə "Alaştın Abayı" adlı konsert olacaq. Konsertdə Abayın əsərlərindən ilhamlanan şeir, vokal və instrumental nömrələr ifa ediləcək.

Tədbirlər şəhərin bütün 8 rayonunda keçiriləcək.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3814
Sifariş 1628

Qiyməti 60 qəpik